15 dekabr 2023 №93 (2062)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## ADMİU-nun əməkdaşları təltif olunub

Prezident İlham Əliyev dekabrın 13-də Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 100 illiyi münasibətilə bu təhsil ocağının əməkdaşlarının təltif edilməsi haqqında sərəncam imzalayıb.

Sərəncama əsasən, universitetin 7 əməkdaşı "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu", 3 əməkdaşı 3-cü dərəcəli "Əmək" ordeni, 1 nəfər "Əməkdar incəsənət xadimi", 9 nəfər "Əməkdar müəllim" fəxri adları və 15 nəfər "Tərəqqi" medalı ilə təltif edilib.

Sərəncamla Gülşad Baxşıyeva, Əli Əmirli, Vamiq Məmmədəliyev və Validə Məmmədova Prezidentin fərdi təqaüdünə layiq görülüblər.

səh. 2

## Heydər Əliyevin xatirəsi Berlində və Haaqada yad edilib




Ölkəmizin Almaniyadakı səfirliyi dekabrın 12-də Ulu öndər Heydər Əliyevin anım günü ilə əlaqədar Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzində tədbir təşkil edib.

Tədbirdə Almaniyanın dövlət qurumlarının təmsilçiləri, xarici ölkələrin diplomatları, Almaniyada yaşayan Azərbaycan, türk və digər icmaların üzvləri iştirak ediblər.

Azərbaycanın Almaniyadakı səfiri Nəsimi Ağayev çıxış edərək Heydər Əliyevin müasir Azərbaycan dövlətçiliyinin qurulmasında göstərdiyi tarixi xidmətlərdən danışıb.

Almaniya Federal İqtisadi Təşviq və Xarici Ticarət Assosiasiyasının icraçı direktoru Urs Unkauf Heydər Əliyevin Azərbaycan-Almaniya münasibətlərinin formalaşmasında rolundan bəhs edib. Vurğulayıb ki, Heydər Əliyev Qərb ölkələri arasında Almaniya ilə əlaqələrə xüsusi önəm verib və bu münasibətlərin dinamik, yüksələn xətlə inkişafı üçün əlverişli zəmin hazırlayıb.

davamı səh. 2-də

## Prezidentin köməkçisi Türk Mədəniyyəti və İrsi Fondunun rəhbəri ilə görüşüb

Söhbət zamanı müasir dövrdə türk xalqlarının hərtərəfli inteqrasiya proseslərinin gücləndirilməsinin önəmindən bəhs edilib, türk dövlətlərinin mədəni əlaqələrinin inkişafında təşkilatın rolu vurğulanıb.

səh. 3

## Vokalçıların növbəti festivalı başlanır




Dekabrın 15-də Bakıda növbəti musiqi bayramı – Azərbaycan Vokalçıları III Beynəlxalq Festivalı başlanır.

Layihənin ideya müəllifi və bədii rəhbəri Əməkdar artist Ramil Qasımov festivalın təşkilinə görə Mədəniyyət Nazirliyinə və Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının rəhbərliyinə təşəkkürünü bildirib.

Qeyd edib ki, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının layihəsi olan festival bu il yeniliklərlə yadda qalacaq. İlk dəfə Azərbaycan bəstəkarlarının klassik vokal üslubunda yazılan yeni əsərləri təqdim olunacaq. Bu təqdimatlar Azərbaycan Bəstəkarlar İttifaqının dəstəyi ilə reallaşacaq.

Festivalın konsertləri Azərbaycan Dövlət Akademik Filarmoniyasında, Kamera və Orqan Musiqisi Zalında, Bakı Musiqi Akademiyasının Opera studiyasında, Milli Konservatoriyada və digər məkanlarda keçiriləcək. Həmçinin Gəncə Dövlət Filarmoniyasında, Naxçıvandakı Heydər Əliyev Sarayında, Sumqayıtda "Kimyaçı" Mədəniyyət Sarayında konsertlər olacaq. Festival çərçivəsində konfrans və ustad dərsləri də nəzərdə tutulub.

Dekabrın 20-də Azərbaycan Dövlət Akademik Filarmoniyasında "Bülbül vokal məktəbi" adlı konsert təşkil olunacaq. Azərbaycan professional vokal sənətinin banisi Bülbülün xatirəsinə həsr olunacaq gecədə klassik operalardan incilər səslənəcək.

Festivalın təntənəli bağlanış mərasimi 22 dekabrda Heydər Əliyev Mərkəzində keçiriləcək. "Viva Puççini" adlı gecədə C.Puççininin operalarından parçalar səsləndiriləcək.

# Qardaşlıq münasibətlərimiz bütün sahələrdə möhkəmlənir

### "Türkiyə ilə Azərbaycan arasında sarsılmaz bağlar var"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 14-də Türkiyənin xarici işlər naziri Hakan Fidanı qəbul edib.



Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb.

Dövlət başçıları və digər səviyyələrdə qarşılıqlı səfərlərin və təmasların əməkdaşlığımızın daha da möhkəmlənməsi işinə töhfə verdiyi bildirilib.

Söhbət zamanı əlaqələrimizin bundan sonra da bütün istiqamətlərdə daha da möhkəmlənəcəyinə əminlik ifadə olunub, əməkdaşlığımızın perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

***

Dekabrın 14-də Azərbaycanın və Türkiyənin xarici işlər nazirləri Ceyhun Bayramov və Hakan Fidan arasında görüş olub.

Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən bildiriblər ki, nazirlər arasında keçirilən təkbətək görüş daha sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edib.

Geniştərkibli görüşdə iki ölkə arasında ikitərəfli, regional və çoxtərəfli əməkdaşlıq gündəliyinin perspektivləri, bölgədəki cari vəziyyət, habelə işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işləri ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan-Türkiyə strateji müttəfiqlik gündəliyinin cari vəziyyətindən məmnunluq ifadə edilib, siyasi, iqtisadi, ticarət, hərbi, müdafiə sənayesi, enerji təhlükəsizliyi, investisiyalar, humanitar, təhsil, mədəniyyət və digər sahələr üzrə münasibətlərin tarixi yüksəliş mərhələsində olduğu bildirilərək Şuşa Bəyannaməsinin bu xüsusda mühüm zəmin olduğu qeyd olunub.

Görüşdən sonra nazirlərin birgə mətbuat konfransı keçirilib.

"Türkiyə ilə Azərbaycan arasında sarsılmaz bağlar var. Azərbaycanın haqq mübarizəsində daim onun yanındayıq", – deyə Hakan Fidan bildirib.

Türkiyə XİN başçısı qeyd edib ki, bölgədə sülh, rifah və inkişaf olmalıdır. Vurğulayıb ki, Türkiyə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşma prosesini, iki ölkə arasındakı görüşləri dəstəkləyir. Bununla birlikdə Türkiyə də Ermənistanla normallaşmanı təmin edəcək.

"Bu gün Azərbaycan-Türkiyə münasibətləri tarixi zirvədədir" deyən xarici işlər naziri Ceyhun Bayramov iki ölkənin iqtisadi əlaqələrinin də yüksələn xətt üzrə inkişaf etdiyini vurğulayıb. Bildirib ki, ötən illər ərzində Azərbaycan tərəfindən Türkiyə iqtisadiyyatına 20 milyard, Türkiyə tərəfindən isə Azərbaycan iqtisadiyyatına 15 milyard dollar həcmində investisiya qoyulub.

Nazir deyib ki, 330-dan çox Türkiyə şirkəti tərəfindən ümumi dəyəri 17 milyard dollara yaxın olan layihələr icra edilib. 2023-cü ilin ilk on ayı ərzində Azərbaycan ilə Türkiyə arasında ticarət dövriyyəsi 7 milyard dollara yaxınlaşaraq 2022-ci ilin 12 ayındakı rəqəmi 15 faiz üstələyib.

Azərbaycan XİN başçısı görüşdə ikitərəfli münasibətlərə paralel olaraq çoxtərəfli platformalarda, BMT və onun təsisatları, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və digər formatlarda əməkdaşlıq barədə də fikir mübadiləsi aparıldığını deyib.

"Qonşu ölkələrin iştirakı ilə üçtərəfli və dördtərəfli formatlar da regionda layihələrin həyata keçirilməsində böyük önəm kəsb edir. Hesab edirik ki, yaxın aylar ərzində üçtərəfli formatda bir neçə görüş keçiriləcək", – deyə Ceyhun Bayramov əlavə edib.

Hakan Fidan da geniş coğrafiyada əməkdaşlıqdan bəhs edərək bildirib ki, Orta Dəhlizin tam potensialı ilə həyata keçməsi çox önəmlidir: "Bu cür layihələrin sayının artırılması bölgənin inkişafı baxımından çox vacibdir. Biz, həmçinin həmkarımla söhbət zamanı da belə layihələrin sayının artırılması ilə bağlı niyyətimizi bildirdik".

## TÜRKSOY-un yubiley konsertlərində musiqiçilərimiz də iştirak ediblər

Xəbər verdiyimiz kimi, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY bu il yaradılmasının 30 illik yubileyini qeyd edir. Bu münasibətlə üzv ölkələrdə müxtəlif tədbirlər təşkil olunur.



11-13 dekabr tarixlərində Ankarada TÜRKSOY-un yubileyinə həsr olunmuş konsertlər keçirilib.

Türkiyə Mədəniyyət və Turizm Nazirliyi və TÜRKSOY-un təşkilatçılığı ilə gerçəkləşən qala-konsertdə təşkilatın nəzdində fəaliyyət göstərən Xalq Çağlı Alətləri Orkestri də iştirak edib. Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə, Türkmənistan, Qaqauz Yeri (Moldova) və Saxa-Yakutiyadan (Rusiya) sənətçilərin qatıldığı bayram şölənində Azərbaycanı tarzən Ruslan Zərbəliyev və kamança ifaçısı Pərviz Fərhadov təmsil ediblər.

Tədbirə TÜRKSOY-a üzv olan ölkələrin diplomatları və dövlət rəsmiləri qatılıblar.

Qeyd edək ki, Pərviz Fərhadov və Ruslan Zərbəliyev 2016-cı ildən adıçəkilən orkestrdə ölkəmizi təmsil edirlər. R.Zərbəliyev Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin, P.Fərhadov isə Azərbaycan Milli Konservatoriyasının müəllimləridir. Musiqiçilər qurumun 30 illik yubiley medalı ilə təltif ediliblər.

## Kiçik qəsəbədən böyük dünyaya yayılan rənglər

### Səttar Bəhlulzadənin Əmircandakı ev-muzeyində



Dolanbac kirəmidli küçələr dəmir darvazalı həyətə aparır. Həyətə girən kimi solda əncir, irəlidə pilləkənlə üzbəüz ətrafa qol-qanad atmış tut ağacı... Ona doğma olan bu həyətdə o vaxt bu ağaclar da var idimi? Demək çətindir. Amma ikinci mərtəbəyə qalxan bu pilləkən o vaxt da olub. Doğrudur, məhəccərləri, pillələrin üzlükləri indi daha müasirdir. Amma ev elə həminkidir...

O, bu həyətdə dünyaya salam verib, ilk dəfə bu həyətdə üst-başını toz-torpağa batırıb, uşaqlığını bu həyətdəki ağacların dibində itirib...

Hər səhər etüd çantasını əlinə götürüb bu pilləkənlərlə düşərək Xəzərin qayalara, qumlu sahillərə çırpılıb qayıdan sularını, şahə qalxan dalğaları doyunca seyr edib. Təkcə bu yerlərə layla çalan mavi Xəzəri yox, gül-çiçəkləri, bağ-bağçaları, dağları, qayaları, ətrafda nə varsa, hər şeyi. Axşamlar qayıdıb gələndə bu pilləkənlərlə evə qalxıb. Sonra onları arıq, uzun barmaqları ilə kətan üzərinə köçürüb. Mahir fırça ustasının yaratdığı ecazkar tablolar ona tamaşa edən hər kəsi heyran edib.

Xalq rəssamı Salam Salamzadə bu fikri necə də gözəl ifadə edib: "Səttarın tabloları Azərbaycan haqqında, onun gözəlliyi, zərifliyi, bərəkətliliyi haqqında həmişə təravətini saxlayan nəğmədir...".

davamı səh. 3-də



Xalq artisti Ramiz Məlik vəfat edib

səh. 2



Heykəltaraş Natiq Əliyev İtaliyanın ordeninə layiq görülüb

səh. 3



Pantomima teatrı Bişkekdən mükafatla qayıdıb

səh.5

# Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin əməkdaşlarının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü və 32-ci bəndlərini rəhbər tutaraq, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 100 illiyi münasibətilə qərara alıram:

**1.** Azərbaycanda təhsilin inkişafında xidmətlərinə görə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

### "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə

Eyubova Mələkxanım Yadigar qızı
Əhmədov İlham Namiq Kamal oğlu
Əli-zadə Məryəm Əli qızı
Əzizov Arif Möhübəli oğlu
Xələfova Fəxriyə Rafiq qızı
İsmayılova Səkinə Qulu qızı
Ömərova Həmidə Məmməd qızı

### 3-cü dərəcəli "Əmək" ordeni ilə

Abdullayeva Yaqut Babakişi qızı
Əsədullayev Mirnazim Müştəba oğlu
Şükürov Azad Hətəm oğlu

### "Tərəqqi" medalı ilə

Abdullayev Həmzə Yusif oğlu
Abdullayeva Tamilla Paşayevna
Babayeva Məryəm Şaqi qızı
Eyvazova Yeganə Məhəmməd qızı
İsmayılov Ramiz Məmməd oğlu
İsrafilov Fərhad Ramazan oğlu
Qəhrəmanlı Fəxrəddin Rəhim oğlu
Mahmudova Göyçək Fuad qızı
Manafov Fikrət Bala Kərim oğlu
Mehdiyeva Səbinə Mətləb qızı
Rüstəmova Nigar Rafiq qızı
Rzaquliyeva Aytən Elbəy qızı
Salayev Ayaz Ramiz oğlu
Süleymanlı Mübariz Aslan oğlu
Talıbova Böyükxanım Böyükağa qızı.

**2.** Azərbaycanda təhsilin inkişafında xüsusi xidmətlərinə və yüksək peşəkarlığına görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

### "Əməkdar incəsənət xadimi"

Mahmudova Ceyran Emin qızı

### "Əməkdar müəllim"

Əliyeva Nəzirə Məmmədqulu qızı
Hüseynov Nadir Qəribağa oğlu
Kazımov Rəşad Oqtay oğlu
Mansurova Humay Saleh qızı
Mehdiyeva Kəmalə Teyyub qızı
Mikayılova Sonaxanım Məmmədağa qızı
Orucov Fəzail Cəfər oğlu
Teymurova Sevda Namaz qızı
Yaqubova Mahirə Mehdi qızı.

**3.** Azərbaycanda təhsilin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Baxşıyeva Gülşad Eynulla qızı
Əmirov Əli Məmməd oğlu
Məmmədəliyev Vamiq Məmmədəli oğlu
Məmmədova Validə İmran qızı.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 13 dekabr 2023-cü il**

# Heydər Əliyevin xatirəsi Berlində və Haaqada yad edilib

*əvvəli səh. 1-də*



Tədbir çərçivəsində Almaniyada yaşayan gənc azərbaycanlı rəssam Günay Şəmsinin çəkdiyi "Heydər Əliyev" portretinin təqdimatı keçirilib.

Daha sonra keçirilən konsertdə Almaniyada yaşayan soydaşımız – dirijor, skripkaçı və bəstəkar Anar İbrahimovun rəhbəri olduğu "Reyn virtuozları" adlı kamera orkestrinin ifasında tanınmış Azərbaycan və Avropa bəstəkarlarının əsərləri səsləndirilib.

***

Ulu öndərin xatirəsinə həsr edilmiş daha bir tədbir Azərbaycanın Niderlanddakı Səfirliyi və Azərbaycan Diasporuna Dəstək Fondunun birgə dəstəyi ilə Haaqada keçirilib.




Tədbirdə çıxış edən səfir Rəhman Mustafayev bildirib ki, Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi illər Azərbaycanın iqtisadi, sosial və mədəni tərəqqisinə, xalqımızın firavanlığı və xoşbəxtliyi, ölkəmizin dünya birliyində özünəməxsus layiqli yer tutması uğrunda mübarizəyə həsr olunub. Heydər Əliyev siyasəti Azərbaycanın uğurlarının əsasıdır.

Tədbir tanınmış azərbaycanlı pianoçu, Əməkdar artist, beynəlxalq müsabiqələr laureatı, Milli Musiqi və Qlobal Mədəniyyət Cəmiyyətinin yaradıcısı və prezidenti Nərgiz Əliyarovanın klassik musiqilərdən ibarət konsert proqram ilə davam edib.

Tədbirdə diplomatik korpusun təmsilçiləri, yerli ictimaiyyətin, eləcə də Azərbaycan diasporunun nümayəndələri iştirak ediblər.

# Cenevrədə, Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə...

## Fransanın müstəmləkəçilik siyasətindən bəhs edilib

BMT-nin Cenevrə Ofisində Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə "Neokolonializm: insan hüquqları, sülh və təhlükəsizlik" mövzusunda beynəlxalq konfrans keçirilib.

Konfransda Fransanın keçmiş və indiki müstəmləkələrindən olan nümayəndələr rəsmi Parisin bu ölkələrdə davam etdirdiyi yeni kolonializm siyasətinin ağır fəsadları barədə məlumat veriblər. Bildirilib ki, Fransa keçmiş müstəmləkələrinin daxili işlərinə kobud şəkildə müdaxilə edir, bu ölkələrdə sabitliyin pozulması siyasətini həyata keçirir, eyni zamanda, hazırda müstəmləkə altında saxladığı ölkələrdə fundamental insan hüquqlarını pozur, bu xalqların təbii sərvətlərini qanunsuz olaraq istismar edir. Təbii ehtiyatlarla zəngin olan bu ölkələrin xalqları Fransadan dəfələrlə çətin şəraitdə yaşayır, işsizlik və yoxsulluq səviyyəsi dəfələrlə yüksəkdir. Fransa yerli xalqların süni şəkildə assimilyasiya edilməsi siyasəti və qeyri-qanuni miqrantların bu ərazilərə köçürülməsi ilə yerli xalqların müstəqillik uğrunda mübarizəsini boğmağa çalışır.

Vurğulanıb ki, Fransa 1980-ci ildə özünün də ratifikasiya etdiyi BMT-nin Mülki və Siyasi Hüquqlar haqqında Paktı ilə xalqlar qarşısında götürdüyü bütün öhdəlikləri pozub.

Konfrans iştirakçıları Fransanın özünün geostrateji mövqeyini möhkəmləndirmək məqsədilə müstəmləkəyə çevirdiyi ölkələri hərbiləşdirməsinə, hərbi bazalarını orada yerləşdirməsinə etiraz ediblər.



İştirakçılar Fransa tərəfindən ölkələrində fundamental insan hüquqlarının və azadlıqlarının pozulması faktlarını sadalayıb, azadlıq uğrunda mübarizədə beynəlxalq təşkilatlar çərçivəsində dövlətlərin səylərinin birləşdirilməsinin vacibliyini qeyd ediblər. BMT institutları və Qoşulmama Hərəkatı çərçivəsində hüquqi əsasda mübarizənin davam etdirilməsinin vacibliyi diqqətə çatdırılıb. Konfransda Fransanın dənizaşırı ərazilərinin təmsilçiləri Qoşulmama Hərəkatının sədri kimi Azərbaycandan bu istiqamətdə onlara dəstək göstərilməsini xahiş ediblər.

Konfransın sonunda yekun bəyannamə qəbul edilib. İştirakçılar onlara göstərdiyi dəstəyə görə Prezident İlham Əliyevə, eləcə də Bakı Təşəbbüs Qrupunun üzvlərinə təşəkkürlərini ifadə ediblər.

Qeyd edək ki, bu, 2023-cü ildə Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə keçirilən və kolonializmə qarşı mübarizə aparan, azad olmağa çalışan xalqlara həsr olunmuş IV beynəlxalq konfransdır.

# Xalq artisti Ramiz Məlik vəfat edib



Azərbaycan mədəniyyətinə ağır itki üz verib. Görkəmli teatr və kino aktyoru, Xalq artisti, Dövlət mükafatı laureatı, "Şöhrət" ordenli Ramiz Məlik 14 dekabr 2023-cü il tarixində, 80 yaşında vəfat edib.

Ramiz Ağarza oğlu Məlik 1943-cü il avqustun 4-də Bakı şəhərində anadan olub. 1967-ci ildə Azərbaycan Dövlət Teatr İnstitutunun Dram və kino aktyorluğu fakültəsini bitirib. Həmin ildən taleyini Akademik Milli Dram Teatrına bağlayıb, aparıcı səhnə ustası kimi tanınıb.

Ramiz Məlik ötən illər ərzində bu sənət ocağının səhnəsində dünya və milli dramaturgiya nümunələri əsasında hazırlanmış tamaşalarda 100-ə yaxın rolda uğurla çıxış edib. Marsel ("Hamlet", V.Şekspir), Mayis ("Sevgililərin cəhənnəmdə vüsalı", İ.Əfəndiyev), Valter ("Yad adam", L.Frank), Arif ("İblis", H.Cavid ), Jan ("Dəfn edilməmiş ölülər", J.P.Sartr), Toğrul ("Atabəylər", N.Həsənzadə), Antoni ("Kölgələrin oyunu", Y.Edlis), Katib ("Gecə döyülən qapılar", N.Xəzri), Dulu Xaqan ("Özümüzü kəsən qılınc", B.Vahabzadə), Vilyams ("Kəllə", N.Hikmət), Qaçaq Süleyman ("Ölüləri qəbiristanlıqda basdırın", İ.Şıxlı), Aqşin ("Od gəlini", C.Cabbarlı) və s. yaddaqalan səhnə obrazları yaradıb.

R.Məlikin yaradıcılıq məharəti televiziya və kino sahəsində də diqqət çəkib. "O qızı tapın", "Qatır Məmməd", "Sevinc buxtası", "Babək", "Qəm pəncərəsi", "Qara gölün cəngavəri" və s. bədii filmlərində, "Günahsız Abdulla" (M.Cavaxaşvili), "Kimin sualı var?" (N.Həsənzadə) "İnanmırsansa…" (Ə.Hacızadə) və s. televiziya tamaşalarında yaddaqalan rollar oynayıb.

Milli teatr və kino sənəti sahəsindəki xidmətləri yüksək qiymətləndirilən sənətkar 1982-ci ildə "Əməkdar artist", 1998-ci ildə "Xalq artisti" fəxri adlarına, 1984-cü ildə respublikanın Dövlət mükafatına ("İblis" tamaşasına görə; yaradıcı heyətin bir qrup üzvü ilə birlikdə), 2019-cu ildə "Şöhrət" ordeninə, 2023-cü ildə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu"na layiq görülüb. 2005-ci ildən Prezidentin fərdi təqaüdçüsü idi.

Görkəmli sənət fədaisi, səmimi insan Ramiz Məlikin əziz xatirəsi sənət dostarı və tamaşaçılarının qəlbində yaşayacaq.



Mədəniyyət Nazirliyinin kollektivi sənətkarın vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin.

***

Dekabrın 14-də Xalq artisti Ramiz Məliklə vida mərasimi keçirilib. Heydər məscidində təşkil olunan mərasimdə aktyorun ailə üzvləri, sənət dostları, Mədəniyyət Nazirliyinin təmsilçiləri, mədəniyyət və ictimaiyyət nümayəndələri iştirak edib.

Azərbaycan Teatr Xadimləri İttifaqının sədri vəzifəsini icra edən Xalq artisti Hacı İsmayılov jurnalistlərə açıqlamasında Ramiz Məliklə bir çox tamaşalarda tərəf-müqabil olduğunu xatırlayıb: "Ramiz Məliki başqa sənətkarlardan fərqləndirən onun kübarlığı idi. Çox dözümlü, iradəli adam idi və uzun müddət xəstə olmasına baxmayaraq, ümid edirdi ki, sağalacaq, yenidən səhnəyə qayıdacaq. Təəssüf ki, bu, mümkün olmadı...".

Akademik Milli Dram Teatrının bədii rəhbəri Mehriban Ələkbərzadə bildirib ki, Ramiz Məlikin xatirəsi əbədi olaraq onu sevənlərin yaddaşlarında qalacaq.

Akademik Musiqili Teatrın direktoru Əliqismət Lalayev də Ramiz Məlikin hər zaman tamaşaçıların sevimlisi olduğunu, rolları ilə seçildiyini, səhnədə emosional, fərqli obrazlar yaratdığını diqqətə çatdırıb: "Bizim Ramiz müəllimlə yaxşı münasibətimiz olub. Bir aktyor kimi onu çox sevmişəm. Bu gün onu son mənzilə yola salırıq. Allah rəhmət eləsin".

Əməkdar artist Ayşad Məmmədov mərhum sənətkarla ilk dəfə Hüseyn Cavidin yubileyi münasibətilə keçirilən tədbirdə eyni səhnəni bölüşdüyünü deyib: "O, Hüseyn Cavidi, mən isə Arif obrazını oynayırdım. O da vaxtilə Arif rolunu oynamışdı. Buna görə sonralar zarafatla məni Arif deyə çağırırdı... Ruhu şad olsun".

Vida mərasimindən sonra Ramiz Məlik II Fəxri xiyabanda dəfn edilib. Sənətkarın məzarı üzərinə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın adından, eləcə də Mədəniyyət Nazirliyinin, Akademik Milli Dram Teatrının adından əklillər qoyulub.

# İşğaldan azad olunmuş ərazilərdə turizmin bərpası

## Elmi-praktik konfransda müzakirə olunub

Dekabrın 14-də Dövlət Turizm Agentliyinin (DTA) təşkilatçılığı ilə Ağdamda "İşğaldan azad olunmuş ərazilərdə turizmin bərpası və inkişafı" mövzusunda elmi-praktik konfrans keçirilib.

Qarabağ və Şərqi Zəngəzur bölgəsində turizm potensialı və mövcud resurslardan səmərəli istifadə, eləcə də sektorun sürətli inkişafı üçün təkliflərin müzakirə olunması məqsədilə təşkil olunan konfransda dövlət orqanlarının nümayəndələri, investorlar, turizm sənayesinin təmsilçiləri və sahə üzrə təhsil alan tələbələr iştirak ediblər.

DTA sədrinin müavini Azadə Hüseynova işğaldan azad edilən bölgələrdə qurulan yeni turizm infrastrukturu haqqında məlumat verib. Xocavəndin Tuğ kəndi və Hadrut qəsəbəsi, Şuşanın Daşaltı kəndində turizm infrastrukturunun yaradılması üçün inkişaf konsepsiyaları üzrə layihələndirmə işlərinin aparıldığı diqqətə çatdırılıb. Tərtər rayonunun Suqovuşan qəsəbəsində istirahət parkının açılışı, "Tuğ" Dövlət Tarix-Memarlıq və Təbiət Qoruğunun yaradılması, Şuşaya turist səfərlərindən söz açan A.Hüseynova bu istiqamətdə işlərin davam etdiriləcəyini vurğulayıb.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin məsləhətçisi Faiq Hacıyev çıxış edərək Ağdamda və digər ərazilərdə Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən genişmiqyaslı bərpa və quruculuq işlərinin aparıldığını, turizmin bölgənin bərpasında əsas sahələrdən biri olacağını deyib.

Sonra postkonflikt dövründə turizmin inkişafı üzrə ən yaxşı təcrübələr, təbliğat işlərinin gücləndirilməsi mövzusu ilə Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmid, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizmin inkişafı və bərpa istiqamətləri, mövcud potensialın səmərəli istifadəsi mövzusu ilə isə Dövlət Turizm Agentliyinin Regional turizm və mədəni irs şöbəsinin müdiri Elgün Cavadov çıxış ediblər.

"İşğaldan azad edilmiş ərazilərin investisiya mühitinin turizm aspektləri: mövcud çağırışlar və imkanlar" adlı panel və "İşğaldan azad edilmiş ərazilərdə turizmin inkişafına elmi baxış" adlı sessiya keçirilib. Sessiyada Bakı Dövlət Universiteti, Azərbaycan Turizm və Menecment Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, ADA Universiteti və Xəzər Universitetindən olan turizm ixtisası üzrə təhsil alan tələbə qrupları mövzu ilə bağlı layihələrini təqdim ediblər.

Həmçinin "İşğaldan azad edilmiş ərazilərdə turizm xidmətləri infrastrukturunun genişləndirilməsi və xidmət keyfiyyətinin artırılması" mövzusunda dəyirmi masa təşkil olunub.

# Bakıdakı Rus Evində Səməd Vurğuna həsr olunmuş tədbir



Dekabrın 13-də Bakıdakı Rus Evində (Rusiya İnformasiya-Mədəniyyət Mərkəzi) Azərbaycanın Xalq şairi Səməd Vurğunun həyat və yaradıcılığına həsr olunmuş ədəbi-musiqili axşam keçirilib.

RİMM-dən bildiriblər ki, tədbirdə musiqi nömrələrinin müşayiəti ilə görkəmli şairin şeirləri səsləndirilib. Proqramda peşəkar musiqiçilərlə yanaşı, gənc istedadlar da iştirak ediblər.

Ədəbi-musiqili axşamın fəxri qonağı Səməd Vurğunun nəticəsi, respublika və beynəlxalq müsabiqələrin laureatı, istedadlı musiqiçi, pianoçu Vurğun Vəkilov olub. Konsertə onun ifasında Sergey Raxmaninovun əsərləri ilə yekun vurulub.

RİMM-in rəhbəri İrek Zinnurov tədbirin iştirakçılarına təşəkkürünü bildirib.

Qeyd edək ki, Səməd Vurğun rus poeziyasından gözəl tərcümələrin də müəllifidir. O, 1936-cı ildə A.S.Puşkinin "Yevgeni Onegin" mənzum romanının Azərbaycan dilinə tərcüməsinə görə dahi rus şairinin adına təsis olunmuş medalla təltif edilib.

# Milyonların qəlbinə hərarət bəxş edən bəstəkar

## Qara Qarayevin 105 illiyinə həsr edilən konfrans və konsert



Bu il dünyaşöhrətli bəstəkar, pedaqoq, SSRİ Xalq artisti, Dövlət mükafatları laureatı Qara Qarayevin (1918–1982) anadan olmasının 105 illiyidir. İl ərzində bu münasibətlə müxtəlif səpkili tədbirlər təşkil olunub.

Dekabrın 13-də Azərbaycan Bəstəkarlar İttifaqında (ABİ) Üzeyir Hacıbəyli adına konsert salonunda dahi bəstəkarın yubileyinə həsr edilən elmi-praktik konfrans keçirildi.

ABİ-nin sədri Xalq artisti, professor Firəngiz Əlizadə konfransı açaraq müəllimi Qara Qarayevin bəstəkar, pedaqoq və ictimai xadim kimi fəaliyyətindən danışdı. Dahi musiqiçinin Azərbaycan bəstəkarlıq məktəbinin inkişafındakı xidmətlərini xüsusi qeyd etdi. Diqqətə çatdırdı ki, vaxtilə Qara Qarayevin bəstəkar və musiqişünaslara etdiyi tövsiyələr bu gün də öz aktuallığını saxlayır: "Tələbələrini daim elm və yaradıcılığa həvəsləndirən dahi bəstəkar deyərdi ki, gənc coşqun ruh yüksəkliyi nümayiş etdirən və daim axtarış həvəsində olandır. Əlbəttə, ona bu fikirləri söyləməyə haqq qazandıran məhz pedaqoji təcrübəsi idi".

Bəstəkarlar İttifaqında Qara Qarayevlə bağlı mütəmadi olaraq tədbirlərin təşkil edildiyini söyləyən F.Əlizadə "Heydər Əliyev İli" çərçivəsində keçirilmiş "Heydər Əliyev dühası və Qara Qarayev irsi" mövzusunda elmi konfrans haqqında da danışdı. Diqqətə çatdırdı ki, Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə Azərbaycan bəstəkarlarına dövlət səviyyəsində diqqət və qayğını əsirgəməyib. Ulu öndər həmişə Azərbaycan musiqisini, bəstəkarlıq məktəbini yüksək qiymətləndirib. O, bütövlükdə musiqi sənətimizin inkişafını diqqətdə saxlayıb.

ABİ sədri onu da qeyd etdi ki, Qara Qarayevin musiqisi, sözün əsl mənasında, beynəlmiləl ruhlu bir sənətdir. Ona görə də milyonların qəlbinə hərarət bəxş edir. Əsərləri ABŞ, İngiltərə, Fransa, Almaniya, Misir, Türkiyə, Rusiya, Polşa, Çexiya, Rumıniya və digər ölkələrin səhnəsində uğurla səslənib.

Konfransda Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə elmlər doktoru, professor İmruz Əfəndiyeva "Qara Qarayevin harmonik dilində caz musiqisinin bəzi xüsusiyyətləri", Əməkdar müəllim, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru Könül Nəsirova "Qara Qarayevin musiqitənqidi fəaliyyəti", sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Leyla Quliyeva "Qara Qarayevin yaradıcılığında "Leyli və Məcnun" mövzusunun təzahürü", Bülbül adına Orta-İxtisas Musiqi Məktəbinin müəllimi Raya Abbasova "Qara Qarayevin "Ömər Xəyyamın sözlərinə 6 rübai" vokal silsiləsi" mövzusunda çıxış etdilər.

Sonra T.Quliyev adına 12 nömrəli Musiqi məktəbinin XI sinif şagirdi Z.Əlizadə, beynəlxalq müsabiqələr laureatları R.Persan, K.İmanova, D.Kərimova, A.Seyidov və C.Abdinzadə dahi bəstəkarın "Piano üçün prelüd", "Mulat", "Mən sizi sevirdim" (romans), "Don Kixot" simfonik qravürlərindən "Səyahət" əsərlərini ifa etdilər.

**S.Fərəcov**

# Filarmoniyada Ulu öndərin xatirəsinə həsr olunan musiqi axşamı

Dekabrın 12-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının səhnəsində Ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş konsert keçirilib.




Bədii rəhbər və baş dirijor, Əməkdar artist Fuad İbrahimovun rəhbərliyi ilə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin müşayiətində solistlər – Xalq artistləri Gülnaz İsmayılova (soprano), Samir Cəfərov (tenor), Əməkdar artist Ramil Qasımov (tenor) və Emin İsmayılov (tenor) çıxış ediblər.

Xatirə gecəsində A.Əlizadənin 4 saylı simfoniya (final), Q.Qarayevin "Yeddi gözəl" baletindən "Adagio", Ü.Hacıbəylinin "Sənsiz" romansı, S.Hacıbəyovun "Karvan" simfonik lövhəsi, A.Zeynallının "Ölkəm" romansı, A.Məlikovun "Məhəbbət əfsanəsi" baletindən "Noktürn", S.Əliyevanın "Ana", F.Bədəlbəylinin "Ave Mariya" və F.Əmirovun "Azərbaycan kapriççiosu" əsərləri səsləndirilib.

Azərbaycan mədəniyyətinin böyük himayədarı olmuş Ulu öndər Heydər Əliyevin əziz xatirəsinə ehtiramın ifadəsi kimi səslənən əsərlər alqışlarla qarşılanıb.

# Azərbaycanın Əməkdar artisti Sankt-Peterburqda təltif olunub



Azərbaycanın Əməkdar artisti, Sankt-Peterburq Mariinski Teatrının solisti Elnarə Məmmədova Sankt-Peterburq qubernatoru Aleksandr Beqlov tərəfindən təşəkkürnamə ilə təltif edilib.

Sankt-Peterburq hökumətinin Smolnı sarayında keçirilən təqdimat mərasimində Elnarə Məmmədovanın şəhərin mədəni həyatına töhfəsi xüsusi diqqətə çatdırılıb.

Sankt-Peterburq hökumətinin xarici əlaqələr komitəsinin sədri Yevgeni Qriqoryev qubernator tərəfindən ilk dəfə xarici ölkənin artistinə təşəkkürnamənin verildiyini diqqətə çatdırıb və vurğulayıb ki, azərbaycanlı opera və balet ustalarının Mariinski Teatrının truppasında fəxri yer tutması iki ölkə arasında mədəni əlaqələrin yüksək səviyyəsindən xəbər verir.

Azərbaycanın Sankt-Peterburqdakı baş konsulu Sultan Qasımov sənətçimizə göstərilən diqqətə görə qubernator A.Beqlova təşəkkürünü bildirib.

# Heykəltaraş Natiq Əliyev İtaliyanın ordeninə layiq görülüb

Tanınmış heykəltaraş, Xalq rəssamı, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru Natiq Əliyev İtaliyanın "Cəngavər rütbəli İtaliyanın Ulduzu" ("Ordine della Stella della Solidarieta Italiana") ordeni ilə təltif olunub.



İtaliyanın Azərbaycandakı səfirinin iqamətgahında ordenin sənətkara təqdimatı keçirilib.

Ordeni heykəltaraşa təqdim edən səfir Klaudio Taffuri deyib: "Natiq Əliyev sənətdə öz istiqaməti olan sənətkardır. O, İtaliyanın İntibah dövrünü tərənnüm edən bir heykəltaraşdır. Həmin dövr mənim ölkəmin ən böyük sənətkarlarının dövrüdür...".

Səfir bildirib ki, İtaliya Prezidenti heykəltaraşı İtaliya ilə Azərbaycan arasında dostluq münasibətlərinin və əməkdaşlığın inkişafında xüsusi xidmətlərinə görə bu yüksək ordenlə təltif edib.

Təltifə görə minnətdarlığını ifadə edən Natiq Əliyev İtaliya incəsənətinin bütün dünyanın ilham mənbəyi olduğunu bildirib: "Öyrəndiyim, qibtə etdiyim heykəltaraşların, rəssamların vətənindən təqdim olunan bu orden mənim üçün böyük şərəfdir".

Xalq rəssamı məlumat verib ki, hazırda italiyalı heykəltaraş Albano Poli ilə müştərək layihə üzərində işləyir: "Layihə üzrə İtaliyanın Verona şəhərində Şekspir və Nizaminin heykəlləri ucaldılacaq. Şekspirin heykəlini italiyalı heykəltaraş, Nizaminin heykəlini isə mən hazırlayacağam".

Natiq Əliyev diqqətə çatdırıb ki, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında tələbələrə İntibah dövrünün sənət əsərləri ilə yanaşı, müasir İtaliya incəsənəti də öyrədilir.

# Prezidentin köməkçisi Türk Mədəniyyəti və İrsi Fondunun rəhbəri ilə görüşüb

Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev dekabrın 13-də Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun yeni prezidenti Aktotı Raimkulova ilə görüşüb.



Fonddan bildiriblər ki, Hikmət Hacıyev Aktotı Raimkulovanı Türk dövlətlərinin başçıları tərəfindən Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti təyin olunması münasibətilə təbrik edib. O, müasir dövrdə türk xalqlarının hərtərəfli inteqrasiya proseslərinin gücləndirilməsinin önəmindən bəhs edərək, türk dövlətlərinin mədəni əlaqələrinin inkişafında təşkilatın rolunu vurğulayıb.

Söhbət zamanı Aktotı Raimkulova Azərbaycan torpaqlarının işğaldan azad olunmasını bütövlükdə Türk dünyası üçün tarixi əhəmiyyətə malik hadisə kimi qiymətləndirib. Təşkilatın rəhbəri bu il Türk dünyasında qeyd olunan əlamətdar yubileylər sırasında müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin 100 illiyinə diqqət çəkib.

Aktotı Raimkulova fondun yaradılmasında və ilk illərdən təşkilatın fəaliyyətinə dəstəyin verilməsində Prezident İlham Əliyevin müstəsna rolunu vurğulayıb. Fondun Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yenidənqurma və bərpa prosesinə də töhfə verməyə hazır olduğunu vurğulayıb.

*əvvəli səh. 1-də*

# Kiçik qəsəbədən böyük dünyaya yayılan rənglər

## Səttar Bəhlulzadənin Əmircandakı ev-muzeyində

### Salam, Səttar dünyası!

İçəri qədəm basan kimi fırça ustasının siqaret çəkdiyi yerdə portreti asılıb. Sağ tərəfdə Pyotr Sabsayın müəllifi olduğu büstü, dostları, sənət yoldaşları ilə birgə çəkdirdiyi, eləcə də Moskvada təhsil aldığı illəri əks etdirən fotoşəkillər, rəssamın çəkdiyi mənzərələrin reproduksiyası, natürmort və qrafik işləri nümayiş olunur.

"Bu şəkildə Səttar babanın rəssam dostu Oqtay Sadıqzadənin bağ evinin divarı əks olunub. Ondan başqa Nəcəfqulu İsmayılov və Kamil Xanlarovun bağ evinin divarına da rəsm çəkib. Təəssüf ki, həmin rəsmlər divara çəkilib. Əgər onları kətan üzərində çəkmiş olsaydı, onun sənət xəzinəsində indiyədək yaşayardı", – deyə Səttar Bəhlulzadənin Ev-Muzeyinin direktoru Pərzad Abdinova AZƏRTAC-a məlumat verir.

Pərzad Abdinova rəssamın bacısının nəvəsidir, ona nənəsinin adını veriblər. Səttar Bəhlulzadənin əsərləri mövzusunda elmi iş müdafiə edib, sənətşünaslıq üzrə fəlsəfə doktorudur.

### Birinci otaq

Burada hər şey onu xatırladır. Şkafda Azərbaycan rəssamlıq məktəbinin ən görkəmli nümayəndələrindən biri, impressionizmin banisi hesab olunan Səttar Bəhlulzadənin Azərbaycanın müxtəlif guşələrindən topladığı minerallar, daşlar, balıqqulaqları onun çox sevdiyi yadigarlardır. Onların hamısını öz əlləri ilə toplayıb, çünki o, bu torpağın, onun bəxş etdiyi gözəlliklərin vurğunu, məftunu idi.

Rəssamın qələmə aldığı gündəlikdə də bu barədə maraqlı fikirlər var: "Bu böyük bir aləmdir, özü də nağıldır, əfsanədir, bəlkə də röyadır, doğrudan da, Azərbaycan torpağı bir əfsanədir, bir röyadır".





Torpağı, onun gözəlliklərini sevmədən bu əsərləri necə yaratmaq olar?!

### İkinci otaq

İkinci otaq rəssamın emalatxanasıdır. Əslində, o öz əsərlərinin böyük bir hissəsini Nərimanov rayonundakı bazarın yanında, sonralar isə İnşaatçılar prospektindəki Rəssamlar evində yaradıb.

Tən ortada molbert qoyulub, palitra, fırçalar, boyalar, etüd çantası... Dünyanın nəhəng sərgi salonlarını Qahirə, Vyana, Berlin, Paris, Neapol, Monreal, Havana, Nyu-York, Moskva, Minsk, Bonn, İstanbul, Tiflis, Praqa və digər şəhərlərdə nümayiş olunan əsərlər məhz bu fırçaların, rənglərin vasitəsilə yaradılıb.

Sənətşünas Mürsəl Nəcəfov rəssamın əsərlərinə dəyər verərək deyib: "Bəhlulzadə sehrli fırçası ilə doğma diyarımızın gözəlliklərini – çiçəkli bağlarını və bərəkətli düzənlərini, başıqarlı dağlarını və sıldırım qayalarını canlandırır. Xalq rəssamının yüzlərlə mənzərəsində qaynar bir həyatın nəbzi duyulur. Bəhlulzadənin mənzərələri – gözəlliyin rəmzidir. Bu gözəlliyi seyr etdikcə insanın ürəyi fərəhlə döyünür, insan yaşamaq istəyir...".

Bir az küncdə dördkünc yazı stolu, güldan, ev əşyaları, kompozisiyalarda istifadə etdiyi etnoqrafik əşyalar, mis qablar, radioqəbuledici...

Bu radioqəbuledicidə fırça ustası kimlərə qulaq asıb, hansı musiqiləri dinləyib?





### Üçüncü otaq

Növbəti yataq otağıdır. Hər axşam məşhur rəssamın ata ocağındakı yataq otağı gərgin iş günündən sonra onun yaradıcılıq axtarışlarına və romantik duyğularına qanad açıb.

Deyirlər ki, Səttar Bəhlulzadə "Neft Daşları"nda olarkən neftçilər onun dəfələrlə gün çıxmamışdan estakada üzərində oturub işlədiyini görəndə bir-birindən soruşurmuşlar: "Görəsən, bu rəssam nə vaxt yatır?".

Yataq otağında rəssamın yaşadığı illərdəki mebel, avadanlıq, televizor, ümumi mühit olduğu kimi qorunub saxlanılıb. Pəncərə önündə patefon və üzərində Xalq artisti Gülağa Məmmədovun ona bağışladığı plastinka...

### Dördüncü otaq

Yataq otağından sonra qonaq otağı gəlir. Burada da stol, stul, kreslo, şkaflar eynən məşhur rəssamın öz dövründə olduğu kimi saxlanılıb. Ona bağışlanan kitablar, əşyalar, divarlardan asılmış portretlər, televizor zamanın qanadlarını qıraraq adamı rəssamın yaşadığı dövrə aparır.

Bu otaq yəqin ki, onun ən xoş, sevincli günlərinin şahididir. Gələnləri həmişə burada qarşılayıb, bu stullarda əyləşib, onlarla həmsöhbət olub. Özünün neçə ad gününü dostları, sənət yoldaşları ilə bərabər hər cür dəbdəbədən uzaq bu otaqda keçirib. Doğma övladı kimi sevib əzizlədiyi bacısı oğlu Rəfaelin 15 yaşını qohum-əqrəba, dost-tanışla birlikdə burda qeyd edib.

### Zal

Ev-muzeyində kiçik otaqların qarşısındakı zalda Səttar Bəhlulzadəyə göndərilən məktublar, rəssamın əsərlərindən ibarət müxtəlif dillərdə dərc olunan kataloqlar, nəqliyyat vasitələrinə, elektrik qatarına minmək üçün istifadə etdiyi biletlər, öz əlləri ilə yazdığı gündəlikdən səhifələr, sənət dostu Maral Rəhmanzadə, kimyaçı professor Həbib Məmmədəliyev, partiya işçisi Pyotr Yelistratov və sənətşünas Qriqori Anisimovun ona ünvanlanan məktubları, həmkarları Mikayıl Abdullayev və Tahir Salahovun təbrik teleqramları, rəssamın fərdi sərgisinə dəvətnamələr, şəxsi sənədləri və tarixi əhəmiyyət kəsb edən eksponatlar nümayiş etdirilir. Əlbəttə ki, yenə də etüd çantası, palitra və fırçalar...

Divarlarda "Mənim anam", "Kəpəzin göz yaşları", "Bazardüzü" və başqa məşhur əsərlərin reproduksiyası asılıb. Rəssam şəxsi gündəliyində yazırdı: "...Dağlar isə elə bil ki, məxmər xalçadır, üzərindəki bu rəngarəng güllər onun nəqşləridir. Şamaxıya qədər gedən yol boyunca dağlar və çiçəklər dəyişir və cürbəcür koloritə girir".

### Həmişə bizimlə qalan gözəllik

Xalq rəssamı, Dövlət mükafatı laureatı Səttar Bəhlulzadə yaradıcılığı boyu çox əsərlər çəkib. Onun ayrı-ayrı fondlarda saxlanılanı da var, ev-muzeyində qorunanı da. Rəssam təxminən 1000-ə yaxın rəsm əsərinin bir hissəsini dost-tanışa bağışlayıb. Onun 18 əsəri Dövlət Rəsm Qalereyasında, 10-u Tretyakov Qalereyasında, 13-ü Şərq Xalqları Muzeyində, qalanları Milli İncəsənət Muzeyində saxlanılır. Bir hissəsi isə burdadır.

Ev-muzeyinin birinci mərtəbəsində divarda rəssam haqqında tanınmış şəxsiyyətlərin fikirləri əks olunub. Həmin fikirlərdən biri də Ulu Öndər Heydər Əliyevə məxsusdur: "Görkəmli sənətkarın adına bir rəssamlıq mərkəzi açmalıyıq. Səttar Bəhlulzadə muzeyi yaratmalıyıq. Doğrudur, onun yaşadığı evdə ev-muzeyi var. Bu, təbiidir və vaxtilə yaranıbdır. Biz onu qoruyub saxlamalıyıq. Amma mən muzey deyəndə Səttar Bəhlulzadənin əsərlərindən ibarət daimi muzeyin yaranmasını nəzərdə tuturam. Çünki rəssamın həm həyatı, həm də yaradıcılığı xalqımızın bu günü və gələcəyi üçün mənəviyyat mənbəyidir, məktəbidir. Xalqımızın estetik tərbiyəsini daha da gücləndirmək üçün Səttar Bəhlulzadənin əsərlərindən istifadə etməliyik. Ona görə də belə bir mərkəzin, belə bir muzeyin yaranması çox zəruridir".

Muzeydən ayrılıb həyətə açılan dəmir darvazanı örtərək yenidən kirəmidli küçələrə çıxırıq. Səttar fırçasının yaratdığı gözəllər isə bizimlə qalır...

**Süleyman Qaradağlı**

# Vətənə və xalqa həsr olunmuş ömür



Yerlərdə Ulu öndər Heydər Əliyevin vəfatının 20-ci ildönümü münasibətilə müxtəlif tədbirlər keçirilib.

Sumqayıt Dövlət Dram Teatrında Abşeron-Xızı Regional Təhsil İdarəsinin təşkilatçılığı ilə "Tarixin uca zirvəsi" adlı tədbir keçirilib. Əvvəlcə iştirakçılar teatrın foyesində şagirdlərin əl işlərindən ibarət sərgi ilə tanış olublar.

Sumqayıt şəhərinin icra başçısı Zakir Fərəcov və Abşeron-Xızı RTİ-nin müdiri İlhamə Abdullayeva Ulu öndərin həyat yoluna nəzər salıb, müstəqil Azərbaycanın memarının ölkənin inkişafı yolunda əvəzsiz xidmətlərindən danışıblar. Sonda məktəblilərin ifasında bədii proqram təqdim olunub.

***

Quba-Xaçmaz RMİ-nin təşkilatçılığı ilə Quba rayon MKS-nin Mərkəzi Kitabxanası tərəfindən "Tarix yazan şəxsiyyət" adlı tədbir keçirilib. Bildirilib ki, Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə müdrikliyi və uzaqgörənliyi ilə Azərbaycanın gələcək inkişafı üçün tarixi işlər görüb. Tədbirin sonunda "Ümummilli lider Heydər Əliyev" adlı kitab sərgisinə baxış olub.

Xaçmaz Tarix-Diyarşünaslıq Muzeyi və Quba-Xaçmaz Regional Gənclər və İdman İdarəsinin Xaçmaz rayonu üzrə sektorunun birgə təşkilatçılığı ilə anım tədbiri keçirilib. Heydər Əliyevin həyat və siyasi fəaliyyətinə həsr olunmuş "Xilaskar ömrü" filmi nümayiş etdirilib.

***

Şəki şəhər Heydər Əliyev Mərkəzində keçirilən anım tədbirində







qeyd olunub ki, Ulu öndərin zəngin dövlətçilik irsi xalqımızın milli sərvəti, müstəqil Azərbaycan isə onun indiki və gələcək nəsillərə əmanətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının vəzifəsidir.

Sonra Rusiyanın TASS İnformasiya Agentliyi baş direktorunun birinci müavini Mixail Qusmanın Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Liderin ürəyi" sənədli filmi nümayiş etdirilib.

***

Bərdə rayon Heydər Əliyev Mərkəzində "Əbədiyaşar lider" adlı tədbir təşkil olunub. Vurğulanıb ki, Ulu öndər ölkəmizin ən çətin vaxtlarında xalqın çağırışına səs verib siyasi hakimiyyətə qayıdaraq respublikanı ağır vəziyyətdən çıxarıb, əmin-amanlığı bərpa edib. Tədbirin sonunda akademik Zərifə Əliyeva adına texniki təmayüllü məktəb-liseyin şagirdləri ədəbi-bədii kompozisiya ilə çıxış ediblər.

Ağdam rayon MKS-nin 19 saylı Üçoğlan kənd kitabxanasında "Heydər dühası ən uca zirvədir!" adlı tədbir keçirilib. Ulu öndərə həsr olunmuş şeirlər söylənilib, kitab sərgisi nümayiş etdirilib.

***

Zəngilan rayon Bartaz kənd Uşaq musiqi məktəbində (müvəqqəti Bakı şəhərində yerləşir) "Əsrin dahisi" adlı tədbir təşkil edilib. Şagirdlər dahi şəxsiyyətə həsr edilən şeirlər söyləyiblər. Sonda Ümummilli liderə ithaf olunan videoçarx nümayiş etdirilib.

***

Lerik rayon Heydər Əliyev Mərkəzində "Vətənə və xalqa həsr





edilən ömür" mövzusunda dəyirmi masa keçirilib. Çıxışlarda Ulu öndər Heydər Əliyevin gənclər siyasəti barədə məlumat verilib.

Masallı rayon Mərkəzi Kitabxanasının Qodman kənd kitabxana filialında "Bizim xilaskarımız" adlı tədbir təşkil edilib. Şagirdlərin ifasında Ulu öndərə həsr olunmuş şeirlər səsləndirilib.





Yardımlı Rayon İcra Hakimiyyəti və rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Xalqımızın yaddaşına əbədi həkk olunmuş dahi şəxsiyyət" adlı dəyirmi masa keçirilib. Ulu öndərin dövlətçiliyimizin möhkəmləndirilməsi, ordu quruculuğu, milli kadr hazırlığı, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, milli-mənəvi dəyərlərimizin təbliği və qorunması sahəsində həyata keçirdiyi işlərdən bəhs edilib.

***

İmişli rayon MKS-nin 17 saylı Əliqulular kənd kitabxanası Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə şagirdlər arasında "Mən fəxr edirəm ki, azərbaycanlıyam!" adlı intellektual yarış keçirib. Qaliblər diplom və medallarla təltif olunublar.

***

Şirvan-Salyan RMİ-nin tabeliyindəki Şirvan Dövlət Rəsm Qalereyası, şəhər Uşaq musiqi məktəbi, Mədəniyyət Mərkəzinin Diyarşünaslıq və Qarabağ klubları, Salyan rayon Mədəniyyət Mərkəzi, rayon Tarix-Diyarşünaslıq Muzeyi, Mərkəzi Kitabxana, Kürqaraqaşlı kənd



Diyarşünaslıq evi, Cəngan, Ərəbqardaşbəyli, Beştalı kənd klubları, 20 Yanvar və Plastmas qəsəbə kitabxana filialları, Biləsuvar rayon MKS-nin Xırmandalı kənd kitabxana filialı, Neftçala Dövlət Rəsm Qalereyası və Hacıqabul şəhər Uşaq musiqi məktəbində Heydər Əliyevin anım gününə həsr olunan tədbirlər keçirilib, sərgilər təşkil edilib.

***

Qazax Tarix-Diyarşünaslıq Muzeyində "Milli-mənəvi dəyərlərimizin xilaskarı" adlı dəyirmi masa keçirilib. Tədbirdə Bakı Dövlət Universiteti Qazax filialının tələbələri də iştirak ediblər.

Tovuz rayon Düz Qırıqlı kənd Uşaq musiqi məktəbində "Dahi şəxsiyyət" mövzusunda konfrans keçirilib. Qeyd olunub ki, Ulu öndərin əsasını qoyduğu ideyalar bu gün onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirilir. Tədbir şagirdlərin şeir ifaları ilə davam etdirilib.

Tovuz rayon Heydər Əliyev Mərkəzində rayon mədəniyyət müəssisələrinin birgə təşkilatçılığı ilə "Əbədi və ölməz Heydər Əliyev dühası" mövzusunda tədbir keçirilib. Heydər Əliyevin siyasi fəaliyyətinə həsr olunmuş məruzələr dinlənilib, film nümayiş etdirilib. Sonra Ulu öndərə aid kitab və jurnallardan ibarət sərgiyə baxış olub.

Ağstafa rayon Mədəniyyət Mərkəzində keçirilən anım tədbirində "Heydər Əliyev – mədəniyyətin və incəsənətin keşikçisi" adlı videoreportaj təqdim olunub. Məktəblilərin ifasında Xalq şairi Zəlimxan Yaqubun Heydər Əliyevin xatirəsinə həsr etdiyi "Əbədiyyət dastanı" poeması əsasında ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

**Hazırladı: N.Məmmədli**

## Doğma yurda qayıdış: Füzuliyə 25, Laçına 20 ailə

Keçmiş məcburi köçkünlərin doğma yurda qayıdışı davam edir. Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, düşərgə, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış 25 ailə (112 nəfər) dekabrın 13-də yenidən qurulan Füzuli şəhərinə qayıdıb.



Ailələr sevinc hissi ilə mənzillərinin açarlarını təhvil alaraq yeni evlərinə yerləşiblər.

Bununla da Füzuli şəhərində 358 ailə olmaqla 1298 nəfərin daimi məskunlaşması təmin edilib.

***

Dekabrın 14-də Laçın şəhərinə daha 20 ailə (86 nəfər) köçürülüb. Aidiyyəti qurumların əməkdaşları tərəfindən sakinlərə mənzillərinin açarları təqdim edilib. Bununla da Laçın şəhərində 383 ailənin (1475 nəfər) daimi məskunlaşması təmin olunub.

## Ekoturizmin inkişafı məqsədilə turizm dəhlizlərinə infotur

Dövlət Turizm Agentliyi tərəfindən Azərbaycanda ekoturizmi inkişaf etdirmək və bu növ fəaliyyətləri təşviq etmək məqsədilə 11-13 dekabr tarixlərində turoperator və turagentliklərin nümayəndələri, videoblogerlər və müstəqil bələdçilərin iştirakçılığı ilə şimal, cənub, şimal-mərkəz və qərb turizm dəhlizləri boyunca infotur təşkil olunub.



İnfotur dörd turizm marşrutu boyunca müxtəlif ekoturizm fəaliyyətlərini, Şahdağ, Qızılağac, Hirkan və Göygöl Milli Parklarını və digər təbiət ərazilərini əhatə edib.

İnfotur iştirakçıları Quba, Qusar, Şamaxı, İsmayıllı, Qəbələ, Lənkəran, Lerik, Astara və Göygöl rayonlarında olublar. Onlara ekoturizm fəaliyyətlərinin və icma iştirakçılığının turizm sənayesində təşviqi üçün təklif edilən xidmət növləri, həmçinin bu fəaliyyəti dəstəkləyən tarixi və mədəni turizm məhsulları nümayiş etdirilib.

Qeyd edək ki, təbiət əraziləri, milli parklar və eləcə də digər turizm baxımından mühüm hesab edilən ərazilərdə ekoturizmin inkişaf etdirilməsi və bu ərazilərin ekoturizm destinasiyası kimi tanıdılması Azərbaycanda turizmin inkişafı strategiyası üzrə prioritet istiqamətlərdəndir.

Ekoturizm fəaliyyətlərinin tanıtımı vasitəsilə bioloji müxtəlifliyin dayanıqlılığını və davamlı istifadəsini təmin etmək, "yaşıl artım" konsepsiyasının turizm sənayesi vasitəsilə dəstəklənməsinə nail olmaqla regionlarda məşğulluq səviyyəsini artırmaq hədəflənir.

## İşğaldan azad olunmuş ərazilərin dirçəlişi fotoobyektivlərdə

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Böyük Qayıdışa dair I Dövlət Proqramı üzrə məlumatlandırma, təbliğat-izahat və təşviqat işlərinin aparılması tədbirləri çərçivəsində Füzuli, Laçın, Şuşa, Zəngilana növbəti infotur təşkil edib.



Komitədən bildirilib ki, infotur iştirakçılarına I Dövlət Proqramında təsbit olunmuş tədbirlərin icrası barədə məlumat verilib.

Şuşada aparılan bərpa-quruculuq işləri ilə yaxından tanış olan infotur iştirakçıları Şuşa qalası, Molla Pənah Vaqifin məqbərəsi, Yuxarı Gövhər ağa məscidi və Cıdır düzündə olublar.

Laçın şəhərində geri qayıdan əhalinin yaşayış şəraiti ilə yaxından tanış olan infotur iştirakçıları buradakı yaradılan yeni iş yerləri və digər infrastruktur obyektlərinə baş çəkib, sakinlərlə söhbətləşiblər. Onlar Zabux kəndinə yeni köçürülən ailələrə mənzillərinin



açarlarının təqdimat mərasimində də iştirak ediblər.

Daha sonra infotur heyəti erməni işğalı dövründə xarabalığa çevrilmiş və indi yenidən qurulan Füzuli şəhərində və "ağıllı kənd" konsepsiyası əsasında yenidən qurulan Zəngilan rayonunun Ağalı kəndində olublar.

Fotoqraflar infrastruktur obyektlərində yaradılan şəraitlə tanış olublar, doğma yurdlarına yeni nəfəs gətirən sakinlərlə söhbət ediblər.

Səfərlər zamanı infotur iştirakçıları işğal dövründə törədilmiş dağıntılar və hazırda



aparılan bərpa-quruculuq işləri ilə bağlı maraqlı fotoçəkilişlər ediblər. Çəkilmiş şəkillər Dövlət Komitəsinin sosial media hesablarında paylaşılıb.

İnfoturda Azərbaycan Fotoqrafları Birliyinin üzvləri, müxtəlif yerli və özəl təşkilatlarda çalışan fotoqraflar iştirak ediblər.

## Tbilisidəki Azərbaycan teatrında yeni tamaşa

Heydər Əliyev adına Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrında yazıçı-dramaturq Pərvin Nurəliyevanın "Mən öləndə ağlama" əsəri əsasında hazırlanmış tamaşanın təqdimatı olub.

Psixoloji dram janrında tamaşanın süjet xəttini Leyla adlı bir xanımın ağır həyatı təşkil edir.

Müəllif Pərvin Nurəliyeva deyib ki, qadınların həyatda üzləşdiyi problemlər, keçirdiyi çətinliklər dünyanın hər yerində aktual məsələlərdir. Əsərin qəhrəmanı Leylanın timsalında qadın həyatının incəliklərini göstərməyə çalışmışıq.

Teatrın bədii rəhbəri Turqay Vəlizadə bildirib ki, tamaşa qastrol səfərlərində də nümayiş etdiriləcək. Hazırda aktyorlar tamaşanı gürcü və rus



dillərində də hazırlayırlar.

Qeyd edək ki, səhnə əsərində teatrın aktyorları Nərmin Həsənova, Telman İsfahanlı, Mədinə Həsənova və Fuad İsfahanlı rol alıblar. Tamaşanın rəssamı Nino Kitiadır.

## Naxçıvanda Qərbi Azərbaycanla bağlı rəsm sərgisi

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına sərgi salonunda Qərbi Azərbaycanla bağlı rəsm sərgisi açılıb.

Sərgi Milli Məclisin Mədəniyyət komitəsi, Qərbi Azərbaycan İcması və Naxçıvan Rəssamlar Birliyi tərəfindən təşkil olunub.

Naxçıvan Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva bildirib ki, Qərbi Azərbaycana qayıdış konsepsiyası çərçivəsində təşkil edilən bu sərgi rəssamların əzəli torpaqlarımızla bağlı yaradıcılıq nümunələrini üzə çıxarmaqla bərabər, ərsəyə gətirilmiş gözəl əl işlərini özündə birləşdirir. Rəsm əsərlərində Qərbi Azərbaycanın dini-mədəni, eləcə də tarixi abidələri, folklor nümunələri əks olunub.



Digər çıxış edənlər də sərginin təşkilini təqdirəlayiq addım kimi qiymətləndirib, rəssamlara yaradıcılıq uğurları arzulayıblar. Sonra sərgiyə baxış olub. Sərgidə 15 rəssamın ümumilikdə 32 əl işi yer alıb.

## "Heydər Əliyev Azərbaycandır!" sənədli filmi Laçında göstərilib

Laçın şəhərindəki "Lacinema" kino mərkəzində Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) tərəfindən hazırlanan və Ulu öndərin 100 illiyinə həsr olunmuş ikihissəli "Heydər Əliyev Azərbaycandır!" sənədli filmi nümayiş etdirilib.

Tədbirdə doğma yurd-yuvalarına qayıtmış laçınlılar böyük siyasətçinin xalqımız qarşısındakı misilsiz xidmətlərindən söz açıblar. Ölkənin ən çətin günlərində, məcburi köçkün kimi yaşamaq məcburiyyətində qalmış laçınlılarla görüşdə Heydər Əliyevin söylədiyi ümidverici, nikbin fikirlərin artıq reallığa çevrildiyi bildirilib.

Sonra Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Prezidentinin Xüsusi Nümayəndəliyinin, "Laçın Abadlıq" Xidmətinin rəhbərlikləri, yerli sakinlər və hərbçilər sənədli filmə tamaşa ediblər.

Baş prodüseri AZƏRTAC-ın idarə heyətinin sədri Vüqar Əliyev olan filmin quruluşçu rejissorları Seyran Mahmudoğlu və Fariz Əhmədov, ssenari müəllifi Yunis Orucovdur.

# Kuklaçılar Bursada festivalda iştirak edirlər



Azərbaycan Dövlət Kukla Teatrının heyəti 11–16 dekabr tarixlərində keçirilən XX Bursa Beynəlxalq Qaragöz Kukla və Kölgə Oyunları Festivalında iştirak edir.

Türkiyə Mədəniyyət və Turizm Nazirliyi və Bursa Böyükşəhər Bələdiyyəsinin dəstəyi ilə gerçəkləşən festival TÜRKSOY təşkilatının 30 illiyi münasibətilə türkdilli ölkələri bir araya gətirib. Sənət bayramında Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkmənistan və Qırğızıstanın kukla və uşaq teatrlarının tamaşaları göstərilir. Həmçinin UNİMA (Beynəlxalq Kukla Teatrları Assosiasiyası) üzvü 10-dək ölkənin kukla teatrı mütəxəssisləri festivala qatılıb.

Kuklaçılarımız 13 dekabrda "Məlikməmməd" tamaşasını göstəriblər. Birhissəli uşaq tamaşasının (Azərbaycan dilində) səhnələşdirəni və quruluşçu rejissoru Anar Məmmədov, quruluşçu rəssamı İqbal Əliyevdir.

Azərbaycan xalq nağılı əsasında hazırlanan tamaşa uşaq və yeniyetmələrə cəsarət, dürüstlük və mübarizlik aşılayır. Məlikməmməd cəsur, qəhrəman, xeyirxah bir obrazdır. Qardaşlarının xəyanəti nəticəsində zülmət dünyasına düşən qəhrəman Simurq quşunun köməyilə işıqlı dünyaya çıxır. Rejissor tamaşanı Vətən müharibəsində tarixi Zəfərimizlə əlaqələndirərək nağıla fərqli prizmadan baxmağa çalışıb.

Musiqi tərtibatında Fikrət Əmirovun əsərlərindən istifadə olunan kukla tamaşasının yeni quruluşda premyerası 2022-ci ilin sentyabrında olub.

# Pantomima teatrı Bişkekdən mükafatla qayıdıb

7–12 dekabr tarixlərində Qırğızıstanın paytaxtı Bişkek şəhərində "Aytmatov və teatr" VI Beynəlxalq Teatr Festivalı keçirilib.

Festivalda Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Özbəkistan və Rusiya Federasiyasından teatr kollektivləri iştirak edib.

İştirakçı kollektivlər Çingiz Aytmatov adına Qırğızıstan Dövlət Rus Milli Teatrında dünyaşöhrətli ədibin əsərləri əsasında hazırlanmış tamaşaları nümayiş etdiriblər.

Azərbaycan Dövlət Pantomima Teatrının kollektivi Ç.Aytmatovun "Əsrə bərabər gün" romanı əsasında hazırladıqları "Manqurt" tamaşası ilə sənətsevərlərin qarşısına çıxıb. Səhnə əsəri maraqla qarşılanıb.

Pantomima teatrının kollektivi Qırğızıstanın Mədəniyyət, İnformasiya, İdman və Gənclər Siyasəti Nazirliyi və bu ölkənin Teatr Xadimləri İttifaqı tərəfindən Ç.Aytmatovun əsərlərinin özünəməxsus plastik interpretasiyasına görə xüsusi mükafata layiq görülüb.



## Dövlət Uşaq Filarmoniyasının "Hədiyyəli qatar"ı




Azərbaycan Dövlət Uşaq Filarmoniyası 22–23 dekabrda "Hədiyyəli qatar" adlı konsert proqramını təqdim edəcək.

Filarmoniyadan bildirilib ki, tədbirdə "Musiqili uşaq teatrı", "Sədəf" xalq çalğı alətləri ansamblı, "Şəms" uşaq xoru, eləcə də vokal sinfi və müxtəlif yaş qruplarından ibarət rəqs kollektivi bir-birindən maraqlı, Yeni il əhvali-ruhiyyəli musiqi nömrələri ilə çıxış edəcək.

Proqramda Azərbaycan, Rusiya və Avropa bəstəkarlarının əsərləri, eləcə də xalq mahnıları səslənəcək.

## Rənglərin dili ilə Abşerona fərqli baxış

Dekabrın 16-dan 30-dək "QGallery" Bakı Rəssamlıq Qalereyasında konseptual heykəltaraş və rəssam Bütünay Haqverdiyevin "Yarımada gündəliyi" adlı fərdi sərgisi keçiriləcək.




"Yarımada gündəliyi" sərgisi Abşeronun sənədli xronologiyası, Abşeron kəndlərinin mənzərəsinin "fotoyaddaş"ıdır.

Bütünay Haqverdiyevin əl işlərini qeyri-adi enerji və emosional zənginlik fərqləndirir. Onun rəsmlərində hərə özünəməxsus olan nəyisə tapır. Azərbaycanın tanınmış təsviri sənət ustası Ucal Haqverdiyev (1960-2004) və rəssam Yelena Haqverdiyevanın oğlu sanki öz tamaşaçısını uşaqlıq aləminə aparır. İrəlidə yalnız cəsarətli arzular var və adama elə gəlir ki, bu arzulara çatmaq üçün heç bir maneə yoxdur.

Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində və Moskvada Britaniya Ali Dizayn Məktəbində sənət təhsili alan B.Haqverdiyev bir neçə kollektiv sərgidə, o cümlədən 55-ci Venesiya biennalesində iştirak edib.

# Muzey Mərkəzində sərgi və konsert

Muzey Mərkəzinin sərgi qalereyası dekabrın 15-də ata və oğul – rəssam, heykəltaraş İbrahim Həsənov və rəssam Ruhulla Həsənzadənin "Metamorfik bağlar:70/30" adlı yubiley sərgisini sənətsevərlərə təqdim edir.




Bu il İbrahim Həsənovun 70 yaşı tamam olur. Sərgidə onun 22 heykəl və 28 rəngkarlıq əsəri yer alıb. 30 yaşlı Ruhulla Həsənzadə isə 30-dək rəngkarlıq nümunələrini nümayiş etdirir.

İbrahim Həsənovun ilk fərdi sərgisi 1990-cı ildə Bakıda təşkil olunub, ikinci sərgisi 1991-ci ildə Londonda keçirilib. Bir çox əl işi əcnəbi kolleksiyaçılar tərəfindən alınıb. Daşdan yonulmuş "Gözləmə" əsəri Tokio şəhərindəki Şərq Muzeyində saxlanılır. Azərbaycanın şəhər və rayonlarında da onun əsərlərinə rast gəlmək olar.

Ruhulla Həsənzadə rəssamlıq, heykəltaraşlıq, illüstrasiya və konseptual incəsənət sahəsində tanınır. 2018-ci ildə Bakı Müasir İncəsənət Mərkəzində ilk sərgisi açılıb.




***

Muzey Mərkəzi "Muzeydə musiqi gecələri" layihəsi ilə də intellektual musiqisevərləri bir araya toplayır.

Dekabrın 25-də "Muzeydə musiqi gecələri" silsiləsinin növbəti konserti bəstəkar Tahir İbişova həsr olunacaq. Onun əsərlərini Bakı Müasir Musiqi Cəmiyyətinin təşkilati dəstəyi ilə "Cadenza" orkestrinin üzvləri və digər dəvətli musiqiçilər ifa edəcəklər.

Görkəmli bəstəkarlarımız Xəyyam Mirzəzadənin, Nazim Mirişlinin siniflərində dərs almış T.İbişov yaradıcılığında fərqli dövrlərə aid üslub və yazı metodlarına müraciət edir. Avstriyada təhsil aldığı dövrlərdə Yeni Vyana Məktəbinin davamçıları Beat Furrer, Georg Friedrich Haas, Alexander Stankovski və s. kimi bəstəkarlardan da dərs alıb.

Humay Qasımzadə (piano) və İslama Abdullayeva (soprano) konsertin solistləridir. Bu konsertlə muzeydəki davamlı musiqi gecələrinin silsilə tədbirlərinə "portret-konsert" adlı yeni format əlavə olunur. Konsertin moderatoru və bəstəkarla həmsöhbət musiqişünas Şəfaqət Məmmədova olacaq.




# Yaradıcı ekosistem və sənaye

## "YES Mükafatı" üçün müraciət qəbulu davam edir

Xəbər verildiyi kimi, Mədəniyyət Nazirliyi tərəfindən təsis edilən "Yaradıcı Ekosistem və Sənaye (YES) Mükafatı" üçün müraciətlərin qəbuluna başlanılıb.

Mükafat yaradıcı sənaye sektorunun əhəmiyyətinin artırılması, sənaye nümayəndələrinin fəaliyyətinin daha da geniş tanıdılması, mədəniyyət sahəsində sahibkarlığın inkişafının təşviq edilməsi və istedadlı şəxslərin peşəkar inkişafının dəstəklənməsi məqsədilə təsis edilib.

Mükafatın təqdim edilməsi müsabiqə əsasında həyata keçiriləcək. Müraciətlər mədəniyyət və yaradıcı sənayelərin (MYS) yaradıcı klasterləri (kino, animasiya, teatr, ədəbiyyat, dizayn, təsviri sənət, tətbiqi sənət/əl işləri, rəqs, musiqi, kulinariya, oyun texnologiyaları, mədəniyyət sahəsində startaplar (cultech) üzrə 6 nominasiyada qəbul olunur:

"İlin biznes təşəbbüsü" – son 1 il ərzində yeni biznes modelinin uğurlu tətbiqinə görə Azərbaycanda təsis edilmiş və MYS sahəsində fəaliyyət göstərən biznes subyektlər arasından seçilir;

"İlin innovativ layihəsi" – son 1 il ərzində Azərbaycanda başladılan və (və ya) böyük hissəsi ölkə daxilində keçirilən, MYS-nin innovativ inkişafına töhfə verən və faktiki fəaliyyət nəticələri olan layihələr arasından seçilir;

"İlin yaradıcı məkanı" – son 1 il ərzində yaradıcı icmaların formalaşmasına və yaradıcı fəaliyyətin həyata keçirilməsinə şərait yaradan məkanlar arasından seçilir;

"İlin mühüm hadisəsi" – son 1 il ərzində ölkədə və ya xaricdə keçirilən, Azərbaycanda MYS-nin inkişafına töhfə verən əhəmiyyətli hadisələr (tədbirlər) arasından seçilir;

"İlin ekosistem oyunçusu" – son 1 il ərzində ölkədə MYS-nin inkişafına töhfə verən fəaliyyətinə görə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun qeydiyyatdan keçmiş təsisatlar (hüquqi şəxslər), həmçinin fiziki şəxslər arasından seçilir;

"Xüsusi mükafat" – münsiflər heyətinin qərarı ilə ölkədə MYS-nin inkişafına xüsusi töhfə verən müsabiqədə iştirak edən namizədlər, həmçinin müsabiqədənkənar şəxslər arasından seçilir.

Qeyd edək ki, namizədlərin seçimi Azərbaycanın tanınmış mədəniyyət və yaradıcı sənaye nümayəndələrindən və müstəqil ekspertlərdən ibarət münsiflər heyəti tərəfindən həyata keçiriləcək.

Müsabiqədə iştirak etmək istəyənlər award.creative.az rəsmi internet səhifəsində qeydiyyatdan keçərək öz namizədliyini irəli sürə bilərlər.

"Heydər Əliyev İli"

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları "Heydər Əliyev İli"nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (86)

### 1999-cu il 24 may

ABŞ-də keçirdiyi cərrahiyə əməliyyatı və müalicədən sonra Prezident Süleyman Dəmirəlin dəvəti ilə qardaş ölkəyə gələn (20 may) Prezident Heydər Əliyev Ankarada, Çankaya Köşkündə Mustafa Kamal Atatürkün Ev-Muzeyini ziyarət edib. 25 mayda Ankaradan Antalyaya qısamüddətli istirahətə yola düşüb. 9 iyunda Türkiyədən Vətənə qayıdıb.

### 1999-cu il 29 iyun

Rusiyalı rəssam Nikas Safranovu qəbul edib. Rəssam Gəncə və Lahıca səfəri barədə məlumat verib, Heydər Əliyevin ömür-gün yoldaşı mərhum Zərifə xanım Əliyevanın portretini və digər əsərlərinin illüstrasiyalarından ibarət albomu ona təqdim edib.

### 1999-cu il 7 iyul

Xalq yazıçısı Maqsud İbrahimbəyovu qəbul edib.

### 1999-cu il 13 iyul

İdman-Sərgi Kompleksində açılmış "Quruculuq salnaməsi" sərgisi ilə tanış olub.

Azərbaycanda hakimiyyətə gəlməsinin 30 illiyi münasibətilə Respublika Sarayında keçirilən musiqili-bədii gecədə iştirak edib.

### 1999-cu il 15 iyul

SSRİ Xalq artisti, məşhur rəqqas Mahmud Esembayevi 75 illik yubileyi münasibətilə təbrik edib. Məktubdan sitat: *"Yaradıcılığınız ölkəmizdə uzun illər boyu daim heyranlıq və məftunluq doğurmuşdur. Sizin iştirakınızla çəkilmiş film ("Mən rəqs edəcəyəm", 1962, rejissor Tofiq Tağızadə - red.) bunun daha bir təsdiqidir".*

### 1999-cu il 24 iyul

Respublika Sarayında məşhur İspaniya müğənnisi Xulio İqlesiasın konsertinə baxıb. Konsertdən sonra müğənni ilə qısa söhbət edib. Xulio İqlesiasın səfər çərçivəsində İmişli rayonuna gedərək Bəhramtəpə dəmir yolu stansiyasında məskunlaşmış məcburi köçkünlərlə görüşünü yüksək dəyərləndirib: *"Bu, sizin tərəfinizdən çox böyük insanpərvərlikdir. Bilirəm ki, proqramınız gərgindir, işiniz çoxdur. Amma dünən öz xahişinizlə gedib qaçqınları görməyiniz məni çox məmnun etdi".*

### 1999-cu il 27 iyul

Prezident Sarayında görkəmli müğənnilər, SSRİ Xalq artistləri Müslüm Maqomayevi və onun xanımı Tamara Sinyavskayanı qəbul edib. Maqomayev özünün əl işini – Heydər Əliyevin portretini ona hədiyyə edib.

*"...Xatirimdədir, sən gənclik illərində oxumağa başlayanda sənin haqqında film var idi. Onu televiziya ilə göstərirdilər, sənin necə şəkil çəkdiyini, heykəl düzəltdiyini görmüşdüm. İndi budur, sənin istedadının daha bir cəhəti üzə çıxdı. Ola bilsin, yenə nə isə üzə çıxacaqdır. Bu, mənə xoşdur, əzizdir, xüsusən də ona görə ki, sən peşəkar rəssam deyilsən, müğənni və musiqiçisən, amma yaxşı portret çəkmisən...".*

### 1999-cu il 28 iyul

Prezident Sarayında tanınmış müğənni Yaqub Zurufçunu qəbul edib. Heydər Əliyev ABŞ-nin Klivlend şəhərindəki klinikada müalicə olunduğu vaxt onu ziyarət etdiyinə görə müğənniyə bir daha minnətdarlığını bildirib.

Yaqub Zurufçu yaşadığı Los-Anceles şəhərindəki televiziyada nümayiş olunmaq üçün Heydər Əliyevdən müsahibə alıb.

### 1999-cu il 18 sentyabr

"Musiqinin Böyük İpək Yolu" 1-ci Bakı Klassik Musiqi Festivalına təbrik məktubu göndərib. *"Musiqi ayrı-ayrı dillərdə danışan, bir-birindən fərqlənən mənəvi və maddi dəyərlərə malik xalqların ən gözəl qarşılıqlı anlaşma və ünsiyyət vasitəsidir... Festivalın keçirilməsi respublikamızda artıq ənənəyə çevrilmiş "Üzeyir musiqi günü"nə təsadüf edir. XX əsrin əvvəllərində Azərbaycan milli musiqisinin dünya professional musiqi sənəti ilə qovuşması yolunda misilsiz xidmətlər göstərmiş dahi bəstəkarın nə dərəcədə uzaqgörən, onun sənət aləmində seçdiyi yolun nə dərəcədə doğru olduğunun əsrin sonunda bir daha şahidi oluruq. Bu, Üzeyir dühasının təntənəsidir...".*

### 1999-cu il 27 sentyabr

Gürcüstan Kinematoqrafçılar İttifaqının katibi Lomer Axvledianini (Heydər Əliyev haqqında sənədli filmlərin operatoru – red.) və kinorejissor Vaqif Mustafayevi qəbul edib.

*"...Sənədli kino xüsusi əhəmiyyətə malikdir... Ancaq, əlbəttə, peşəkarlıq səviyyəsi layiqincə olduqda sənədli kino xüsusi dəyər kəsb edir... Ona görə də bu işlə məşğul olan sənətkarlar böyük iş görürlər. Siz Roman Karmenin "Neft daşları" haqqında çəkdiyi "Xəzəri fəth edənlər" adlı məşhur kinofilmini xatırlayırsınızmı? Necə gözəl film idi! Karmen sənədli kinonun böyük ustadı idi... Azərbaycanda da yeni, gənc kadrlar böyüyür...".*

### 1999-cu il 8 oktyabr

Bakıda işə başlayan "Şərq-Qərb" Kinofestivalının iştirakçılarını qəbul edib.

*"...Şadam ki, Azərbaycanda kinofestivallar keçirilməsi ənənəsi artıq təşəkkül tapmışdır... Bu yaxınlarda Rüstəm İbrahimbəyov (Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri, festivalın rəhbəri – red.) mənə dedi ki, bir neçə ay əvvəl şəhərin mərkəzindəki "Azərbaycan" kinoteatrı, – yeri gəlmişkən, o, kino həvəskarlarının neçə-neçə nəslinin olduğu yerdir, – yenidən qurulmuşdur. Mən o kinoteatrı xatırlayıram. Gənclik illərində biz kinonu sevirdik. Xatirimdədir, orada foyedə həmişə estrada orkestri çalırdı, biz gəlib musiqini dinləyirdik, sonra da salona daxil olub filmə baxırdıq...*

*Bütün bunlardan danışarkən əsas fikrə bir daha qayıdıram ki, Azərbaycanda biz hamımız incəsənətin, kinonun, mədəniyyətin böyük pərəstişkarlarıyıq. Formalar dəyişir, indi televiziya çox böyük yer tutur, amma kino öz əhəmiyyətini itirmir... Adamlar kinofilmi təkcə televizorda deyil, ekranda da görmək istəyirlər. Buna görə də sizin peşəniz yaşayır və yaşayacaqdır... Məruz qaldığınız çətinliklər məlumdur. Amma gərək nikbin olasan, irəliyə baxasan və düşünəsən ki, hər şey getdikcə daha yaxşı olacaqdır. Zənnimcə, məhz bu fikirləri Bakı festivalı da təsdiqləyəcəkdir...".*

**Hazırladı: V.Orxan**

*(davamı var)*

№93 (2062)
15 dekabr 2023
www.medeniyyet.az

# “Bu cür layihələr Türk dünyasının birliyinə xidmət edir”



Xəbər verdiyimiz kimi, dekabrın 10-da “Şuşa – Türk dünyasının mədəniyyət paytaxtı” ilinin rəsmi bağlanış mərasimi keçirildi. Zəngin proqramı olan mərasimdə 2023-cü il üzrə “TÜRKSOY Media Mükafatı” da sahiblərinə təqdim edildi.

Tədbirdən sonra mükafata layiq görülən media nümayəndələrinin bəzilərindən təəssüratlarını öyrəndik.

“Esrarengiz Azərbaycan” silsilə verilişlərinin (NTV, Türkiyə) müəllifi və aparıcısı Esra Gezginci deyir ki, Şuşada TÜRKSOY-dan mükafat almaq çox qürurverici hissdir: “Çünki “Esrarengiz Azərbaycan” verilişini hazırlayarkən Şuşada da çəkilişlərimiz oldu. “Paytaxt ili”ndə Şuşada rəngarəng tədbirlər keçirildi. Türkmənistanın Anev şəhəri 2024-cü ildə “Türk dünyasının mədəniyyət paytaxtı” elan edilib. Ümidvaram ki, gələn il orada da çəkiliş edə biləcəyəm”.

Müəllifi və aparıcısı olduğu veriliş haqqında məlumat verən Esra Gezginci bildirdi ki, proqram üzrə Azərbaycanla bağlı ümumilikdə 10 veriliş çəkilib: “Proqramın 5 verilişi isə Şuşa şəhərində lentə alınıb. Bu verilişlər Bakıdan Şuşaya qədər uzanan gözəl bir səyahəti özündə əks etdirir. Deyə bilərəm ki, Şuşa ilk çəkilişimizdən bu yana daha da abadlaşıb, gözəlləşib. Bu gün Şuşa öz əvvəlki əzəmətini bərpa edir. Bu da bizi çox xoşbəxt edir”.

Qazaxıstanın “Xabar 24” televiziyasının müxbiri Merüyert Pambetova Şuşaya ilk dəfə gəldiyini deyir: “Bu gözəl şəhəri görmək üçün mənimlə birlikdə həyat yoldaşım və 4 yaşlı oğlum da buradadırlar. Mənə dedilər ki, oğlum Şuşaya xarici vətəndaş vəsiqəsi ilə gələn ilk uşaqdır. Günortaya qədər Şuşanı gəzmək fürsətimiz oldu. Şuşa o qədər mükəmməl, o qədər gözəl bir yerdir ki... Yaxşı ki, bu gözəl şəhəri görmək imkanım oldu. Bu imkanı bizə yaratdığı üçün TÜRKSOY-a öz minnətdarlığımı bildirirəm. Bildiyiniz kimi, “TÜRKSOY Media Mükafatı” alanların siyahısında mənim də adım var. Buna görə quruma ayrıca təşəkkür edirəm”.

“Özbəkistan 24” televiziyasının müdir müavini Şunkor Choriyev də Azərbaycana ilk dəfəfdir gəlib: “Şuşa haqqında mətbuatdan çox məlumat almışdım. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsi zamanı Şuşanın azad edilməsi xəbəri o vaxt bizim radio və televiziyalarda geniş işıqlandırılmışdı. 30 ilə yaxın bir müddətdən sonra Azərbaycan şanlı Zəfər qazanaraq Şuşanı, Qarabağı azad etdi. Bir türk olaraq Şuşanın azad olunması məni çox sevindirmişdi. Bu gün artıq buradayam, valehedici təbiəti, gözəl mənzərəsi olan Şuşa şəhərindəki bağlanış tədbirində iştirak edirəm. Burada iştirakıma və mükafata görə TÜRKSOY-a xüsusi təşəkkür edirəm. Arzu edirəm ki, Türk dünyasının bu birliyi daim olsun. Bildiyim qədər, Şuşa şəhəri 2024-cü il üçün “İslam dünyasının mədəniyyət paytaxtı” elan edilib. İnanıram ki, Şuşa bu missiyanın da öhdəsindən layiqincə gələcək”.

Qaqauz Yazıçılar Birliyi jurnalının baş redaktoru Konstantin Kurtoğlu (Moldova) Şuşa şəhərində, Azərbaycan torpağında olmağından məmnunluğunu bildirir: “Sağ olsun TÜRKSOY ki, bu gün onların sayəsində buradayıq. “Türk dünyasının mədəniyyət paytaxtı” layihəsinə görə quruma ayrıca təşəkkür edirəm. Bu layihə Türk dünyasının daha da yaxınlaşmasına, türk xalqlarının mədəniyyəti ilə tanış olmağımıza köməklik göstərir. Gələn il Türkmənistanın Anev şəhəri bu missiyanı yerinə yetirəcək. İnanıram ki, Şuşada olduğu kimi, orada da bir-birindən zəngin və yaddaqalan tədbirlər həyata keçiriləcək”.

Qaqauz Radio və Televiziyasının əməkdaşı Alyona Terzi (Moldova): “Türk dünyasının bir qolu, qaqauz olaraq bugünkü tədbirdə iştirak edirik. Ümidvaram ki, belə tədbirlər daha çox olacaq. Çünki bu cür layihələr Türk dünyasının birliyinə xidmət edir. Var olsun, Türk dünyası!”.

**Nurəddin**

## Mərkəzi İncəsənət Məktəbində xatirə tədbiri



Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbində Ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir təşkil edilib.

Tədbirin təşkilatçısı məktəbin nəzəriyyə şöbəsinin müəllimi Pərvin Səfərli Heydər Əliyevin həyat və fəaliyyətindən söz açaraq onun müstəqil Azərbaycan dövlətinin inkişafı üçün gördüyü tədbirlərdən, musiqiyə, mədəniyyətə, elmə olan sevgisindən, diqqət və qayğısından danışıb.

Məktəbin müəllimi Mətanət Nurullayevanın fortepianoda müşayiəti ilə xor müəllimi Regina Məcidova Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın Ulu öndərə həsr etdiyi “Elegiya” şeirini söyləyib.

Tədbirdə Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən fotoxronika, videoçarxlar nümayiş olunub.

## “Azərbaycan dilinin orfoqrafiya lüğəti”nin yenilənmiş və təkmil nəşri

Dövlət Tərcümə Mərkəzi Azərbaycan dilinin və ədəbiyyatının böyük hamisi Heydər Əliyevin 100 illiyinə töhfə olaraq ana dilimizin yeni və daha təkmil orfoqrafiya lüğətini ərsəyə gətirib.

Mərkəzdən bildirilib ki, lüğət milli orfoqrafiya lüğəti tarixində (1929–2021) mənbə nəşrlərdə yer almamış minlərlə (ümumi sayı 30 mindən çox) saf Azərbaycan sözləri və terminlərlə zənginləşib. Yeni nəşrin daha bir əlamətdar uğuru Ulu öndərin Türk dünyasında zərb-məsələ çevrilmiş “Bir millət, iki dövlət” kəlamının davamı olaraq son illər ölkədə geniş işləklik qazanmış yüzlərlə türkkökənli sözlərlə dolğunlaşdırılması və nəticə etibarilə dilimizin ana kitabının mənzərəsinin dəyişilərək ona türk dilləri qrupunun aparıcı və ümumişlək dil vəsaiti statusu qazandırmasıdır.

Lüğətin tərtib müəllifi – Xalq yazıçısı Afaq Məsud, redaksiya heyətinin üzvləri – akademik Nizami Cəfərov (ön sözün müəllifi), filologiya elmləri doktorları, professorlar Vilayət Quliyev, Qulu Məhərrəmli, Cəlil Nağıyev, Cahangir Məmmədli, Rüstəm Kamal və filologiya üzrə fəlsəfə doktoru, dilçi-alim İsmayıl Məmmədovdur.

## Heydər Əliyevin xatirəsinə həsr olunmuş poeziya axşamı

Bakıdakı Rus Evində Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş poeziya axşamı keçirilib.

Rusiya İnformasiya-Mədəniyyət Mərkəzindən (RİMM) bildirilib ki, tədbir Azərbaycanın Rus Gəncləri Assosiasiyası, “Gənclərin töhfəsi” və “Peşə Təhsilinin İnkişafı və Məşğulluğa Dəstək” ictimai birliklərinin iştirakı ilə təşkil olunub.

Gənc şairlər Heydər Əliyevə və Azərbaycana həsr etdikləri şeirlərini söyləyiblər.

“Heydər Əliyev dünyamiqyaslı dahi şəxsiyyət idi. Onun zəngin irsi hələ uzun müddət politoloqların, tarixçilərin və tədqiqatçıların diqqət mərkəzində olacaq. Heydər Əliyev Azərbaycan və Rusiya arasında dostluq münasibətlərinin qorunub saxlanılmasında və inkişafında mühüm rol oynayıb, iki dövlət arasında strateji tərəfdaşlığın təməlini qoyub”, – deyə RİMM-in məlumatında qeyd edilir.

## Muzeydə Qafqaz Albaniyasının sənətkarlığına dair eksponatlar




Milli Azərbaycan Tarixi Muzeyinin yeni ekspozisiyasında Qafqaz Albaniyasının sənətkarlığını və beynəlxalq ticarət əlaqələrini əks etdirən eksponatlar nümayiş olunacaq.

Bu barədə muzeydən məlumat verilib. Bildirilib ki, sənətkarlığın müxtəlif sahələrinə aid olan və e.ə IV – b.e VII əsrlərini əhatə edən eksponatlar xüsusi vitrinlərdə yer alır. Təqdim olunacaq eksponatlar müxtəlif illərdə Mingəçevir, Şamaxı, Qəbələ, Ağsu və digər şəhər və rayonlarda aparılmış arxeoloji qazıntılar zamanı tapılıb.

## Özbəkistan Elmlər Akademiyasının 80 illik yubileyində ölkəmiz də təmsil olunub

12–13 dekabr tarixlərində Daşkənddə Özbəkistan Elmlər Akademiyasının 80 illiyinə həsr olunmuş yubiley tədbirləri keçirilib. Tədbirlərdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli də iştirak edib.

Akademik İsa Həbibbəyli çıxış edərək Azərbaycan və Özbəkistan arasında bütün sahələrdə olduğu kimi, elm sahəsində də əlaqələrin daim inkişaf etdiyini bildirib. Elmlər akademiyalarının qarşılıqlı əlaqələrindən danışan İsa Həbibbəyli son illərdə təkcə Azərbaycanla Özbəkistanın deyil, ümumiyyətlə, Türk dünyasının bütün ölkələrinin elmi qurumları arasında əlaqələrin yeni mərhələyə qədəm qoyduğunu xüsusi vurğulayıb.

Mərasimdə Türkiyə, Qazaxıstan, Monqolustan, Çin, Qırğızıstan, Tacikistan, Rusiya, Belarus Elmlər akademiyalarının rəhbər şəxsləri də çıxış ediblər.

Özbəkistan EA-nın 80 illik tarixi yolundan bəhs edən sənədli film nümayiş etdirilib. Yerli incəsənət ustalarının konserti olub.

Yubiley tədbirləri bölmə iclasları ilə davam edib.

***

Özbəkistan Elmlər Akademiyasının yubileyi ilə bir arada Daşkənddə “Cədidlər: Milli kimlik, istiqlal ideyaları və dövlətçilik” adlı beynəlxalq elmi konfrans (11–12 dekabr) da təşkil edilib.

Konfransda ölkəmizdən AMEA-nın prezidenti İsa Həbibbəyli, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru Ülkər Səttarova, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov və digər şəxslərin yer aldığı nümayəndə heyəti iştirak edib.



Elm və Ali Təhsil üzrə Dövlət Agentliyindən bildirilib ki, konfransın əsas məqsədi cədidlərin maarifçilik ideyalarının təhlili və müzakirəsi, habelə hərəkatın milli dövlətçiliyin inkişafına verdiyi töhfənin hüquqi və demokratik cəmiyyət quruculuğu baxımından nəzərdən keçirilməsidir.

Qeyd edək ki, XX əsrin əvvəllərində Türküstanda baş qaldırmış cədidçilik hərəkatı Rusiya imperiyasında və Şərqdə yaşayan digər müsəlmanlar arasında geniş yayılmış mədəni-maarif islahatlarının tərkib hissəsi olub. Cədidçiliyin əsas ideyaları təhsili müasirləşdirmək, mədrəsələrdəki köhnə tədris üsullarından uzaqlaşmaq, yeni pedaqoji metodlardan və dünyəvi təhsildən istifadəyə çağırış idi.

## Şərabçılıq turizminin inkişafı kadr hazırlığından da asılıdır

“Global” şərab turizmi təşkilatının rəhbəri Joze Antonio Vidal Azərbaycan Turizm və Menecment Universitetində (ATMU) olub.

Rektor İlham Mədətov qonağa ATMU-nun fəaliyyət istiqamətləri və hədəfləri, eləcə də ölkəmizdə şərabçılıq turizmi, bu ilin noyabrında Şamaxıda keçirilmiş 2-ci Üzüm və Şərab Festivalı barədə məlumat verib.

Mehmanxana və restoran biznesi kafedrasının müdiri Novruz Quliyev müvafiq ixtisas tələbələrinə qastronomiya və şərabçılıq turizmi, istehsal texnologiyası fənlərinin tədris edildiyini, praktik dərs-məşğələlərin vaxtaşırı Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunda keçirildiyini bildirib.

Joze Antonio Vidal təşkilatın fəaliyyətində şərab istehsalı üzrə ixtisaslaşan regionların tanıdılması, müvafiq tədbirlərin təşkili, o cümlədən şərab destinasiyası təbliğinin əhatə olunduğunu diqqətə çatdırıb.

Bu istiqamətdə yeni tədris proqramlarının işlənməsi, qarşılıqlı əməkdaşlıq əlaqələrinin qurulması, turizm kurslarının təşkili, təşkilat tərəfindən planlaşdırılan tədbirlərdə ATMU əməkdaşlarının iştirakı məsələləri müzakirə olunub.

## Çövkən üzrə Prezident kuboku uğrunda növbəti yarış

2013-cü ildə Azərbaycanın UNESCO-ya müvafiq təqdimatı əsasında təşkilatın Təcili Qorunmaya Ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilən çövkən oyunu üzrə artıq on ildir Prezident kuboku yarışları keçirilir. Mədəniyyət və Turizm Nazirliyinin (2018-ci ildən Mədəniyyət Nazirliyi) təşəbbüsü və dəstəyi ilə əsası qoyulan yarışlar son illərdə Azərbaycan Atçılıq Federasiyasının təşkilatçılığı ilə gerçəkləşir.

Prezident kuboku uğrunda növbəti yarış 15–24 dekabr tarixlərində Binə Atçılıq Mərkəzində keçiriləcək.

Dövlət Sərhəd Xidmətindən verilən məlumata görə, yarışda “Sərhədçi-Dilbaz”, “Şirvan”, “Sərhədçi-Qarabağ”, “Zəfər”, “Polad”, “Embavood”, “Köhlən” və “Omar” çövkən komandaları iştirak edəcək.

Səkkiz kollektiv əvvəlcə hərəsində dörd komanda olmaqla iki qrupda mübarizə aparacaq. Qrup oyunlarının nəticələrinə əsasən, ilk iki yeri tutan komandalar yarımfinala yüksələcəklər.

# Sənətin Mirzə Cəfər ehtişamı

Orta əsrlərdə yaranan xəttatlıq sənəti incəsənətin bir növü olmasa da, ayrıca sənət qolu kimi daim inkişaf edib. Bu sənətin bənzərsiz nümunələrini yaradan xəttatlarımızdan biri Mirzə Cəfər Təbrizi olub. Görkəmli sənətkarın üzünü köçürdüyü əsərlər Parisdən Sankt-Peterburqadək məşhur kitabxana və muzeyləri bəzəyir.

Mirzə Cəfər Əli oğlu Təbrizi 1415-ci ildə Təbriz şəhərində dünyaya göz açıb. Erkən çağlardan sənətə böyük maraq göstərib. Valideynləri onu görkəmli xəttat Zərrinqələm Təbrizinin yanına aparırlar. Ustad sənətkar əvvəlcə Cəfərin əl işlərinə baxır. İstedadlı gənc olduğunu görür və yanında saxlayır. O, burada xəttatlığın sirlərini dərindən öyrənir. İllər bir-birini əvəz etdikcə Cəfərin təcrübəsi artır. Nəstəliq, təliq və süls xətlərinin ustad bilicisi kimi tanınır.

Sənətinin şöhrəti gedib saraya da çatır. Əmir Teymurun o zaman Azərbaycanda hökmdarlıq edən oğlu Miranşah onu saraya dəvət edir. Cəfər sarayda özünü ustad sənətkar kimi göstərir. Bir müddət sonra onu digər xəttatlarla birlikdə Herata – Əmir Teymurun digər oğlu Şahruxun sarayına aparırlar. Onun xüsusi istedadını orada da görürlər. Sarayda kiçik bir kitabxana-emalatxanaya rəhbər təyin edilir.





Şahruxun oğlu Baysunqur Cəfərlə çox maraqlanır və onu himayə edir. Qırx xəttatla səhərdən axşamacan kitab üzü köçürən Cəfər Təbrizi tez-tez kitabxanada görülən işlər haqqında Baysunqura hesabat verir. Araşdırmalardan aydın olur ki, həmin hesabatlardan biri (1427) bu gün də İstanbuldakı Topqapı sarayının muzeyində saxlanılır. Hesabatda kitabxananın fəaliyyətinin təsviri ilə birlikdə 18 miniatürçü, xəttat, cildçi, tərcüməçi və qızıl suyu ilə işləyən usta və digərləri haqqında səhih məlumatlar yer alıb.

Cəfər Təbrizi fitri istedadı və böyük təcrübəsi sayəsində iki məşhur xətt növünü – “nəsx” və “təliq” xətlərini sintez edərək nəstəliq xəttini yaradır. Bu xətt növü sonralar “İslam xətt növlərinin gəlini” adlandırılır. Cəfər Təbrizi ustad xəttat kimi Xorasan və Türküstanda böyük şöhrət qazanır...

A.Qazıyev araşdırmasında yazır ki, Cəfər Təbrizi o zaman təzə ortaya çıxan nəstəliq xəttinin formalaşması üçün böyük iş görür. Yazı üsullarının yaşadılması naminə istedadlı gənclərdə bu sənətə maraq oyadır, onlara sənətin sirlərini öyrədir. Araşdırmalarda o da qeyd edilir ki, C.Təbrizi nəstəliq ustası kimi tanınmasına baxmayaraq, klassik xətlərlə də məşğul olur. O dövrdə nəstəliq yazısının iri, həm də xırda növləri olub. İri nəstəliq adətən qitə üzərində yazılıb. Bu, üzərində üç dünyəvi məzmunlu nəzm nümunələri yazılan və naxışlarla bəzədilən kağız vərəqin karton üzərinə yapışdırılması ilə düzəldilir. Kiçik və orta nəstəliqlə bir qayda olaraq poetik əsərlərin əlyazma nüsxələri köçürülüb. Kiçik nəstəliq yazısı XV əsrin ikinci yarısında Heratda özünün daha mükəmməl formasını alıb. Yerli xəttatları bunun sonralar “Herati” adlanan xüsusi növünü yaradırlar. Həmin xətt növünün yaradıcısının da Cəfər Təbrizi olduğu qeyd edilir.

Şərqdə məşhur xəttat kimi tanınmış Əzhər Təbrizi də nəstəliq xəttini ondan öyrənib. Cəfər Təbrizi Baysunqurun sarayında çalışdığı dövrdə bir sıra kitabların – Sədi Şirazinin “Gülüstan”, Əbülqasım Firdovsinin “Şahnamə”, Nizami Gəncəvinin “Xəmsə”sinin üzünü köçürüb. Həmin nüsxələr Paris, Dublin, Tehran, İstanbul və Sankt-Peterburqun kitabxana və muzeylərində saxlanılır.

Görkəmli xəttat həm də şair kimi tanınıb. Söz yox ki, onun şairlik təbi xəttatlıq əsərlərinə də öz təsirini göstərib. Baysunqurun ölümünə yazdığı mərsiyə, Şahruxun sarayında çalışarkən yazdığı müxtəlif məzmunlu şeirləri zamanın sınaqlarından çıxıb.

Cəfər Təbrizi 1480-ci ildə, 65 yaşında Herat şəhərində vəfat edib.

**S.Fərəcov**

# Aktyor əbədiyyətə qovuşanda...

Aktyor ölmür? Bunu hansı xəyalpərəst uydurub? Ölür, özü də ən birinci mənən. Nə vaxt? Boş zala oynayanda, tamaşaçısının gül-çiçək dəstələri o yana, adicə alqışını duymayanda, kulisdə rejissorun arxalarınca etdiyi "bacarmırlar, əllərindən ancaq bu gəlir" qeybətini eşidəndə... Bir də hər yaxşı tamaşaya "mənimdir!" deyib sinəsini qabağa verən rejissordan üz gizləyəndə... Adını təltif siyahısında, afişaların yuxarı sırasında görməyəndə, küçədə-meydanda tanınmayanda. "Qarderobdan başlayan" teatra – gündəlik iş yerinə illərlə nimdaş geyimdə gəlib-gedəndə... Dahası da var, amma məncə, yetər...



Çünki həm də bütün bunları kulisdə unudub səhnəyə çıxan, oradan yalnız öləndə düşmək kimi müqəddəs arzulu bəxtəvərlərdi (bəlkə də bədbəxtlər) aktyorlar. Yəqin elə buna görə də amerikalı aktyor, ssenarist Lourens Barret aktyoru qardan heykəllər düzəldən insanlara bənzədir və onları bu mənada dünyanın ən məsumu sayır.

...Ötən həftə yolumu Şuşa Dövlət Musiqili Dram Teatrından saldım. İki aktyorun birgə işi olan "Aktyor əbədiyyətə qovuşanda" adlı səhnə aktını izləməyə getmişdim.

Bütün texniki parametrləri, səhnə həlli və oyun üslubu baxımından tamaşa orijinal, təsirli, maraqlı və həm də bir aktyorun rejissura cəhdi baxımından cəsarətli idi. Əməkdar artist Nazir Rüstəmov özü və tərəf-müqabili, istedadlı, səhnədə də həyatda olduğu kimi zərif və məsum Bahar Həmzəyevaya öz potensialını nümayiş etdirmək üçün yetəri qədər meydan vermişdi. Unutmadan onu da deyim ki, iki personajlı səhnə əsərinə quruluş verməklə musiqi tərtibatçısı da Nazir Rüstəmovdur.

Psixoloji dram janrında olan birhissəli tamaşa xorvat yazıçı-dramaturqu Miro Qavranın eyniadlı əsəri əsasında hazırlanıb. Deyəsən, yaradıcı heyət indi onu başqa adla – "Ölməz sevgi" kimi təqdim edəcək. Hər halda, hər iki ad uğurludur. Amma və lakin bu iş kütləvi tamaşaçı üçün deyil. Niyə? Çünki burada bir aktyor ömrünün ağır, hüznlü, xiffət dolu yolu var və onu yalnız bu yük çiyinlərində iki dünya arasında qalanlar – yəni məhz aktyorlar gözəl anlaya bilərlər. Sözsüz ki, bir də sənətin mahiyyətini duyan həssas tamaşaçılar...

Müəllif bir aktrisa, onun rol, səhnə, sənət arzularını, eləcə də bir rejissorun, daha doğrusu, nə vaxtsa təhsilini başlamadan bitirən, istedad və peşəkarlığını qayğılara qurban verən bir rejissorun – qısacası, sənətdə və həyatda səadəti yalnız səhnədə tapan ikilinin xəyal ilə gerçəklik arasındakı oyununu təqdim edir. Əsərdə bir teatr aktrisasının, bir aşiq, özü də tapınacaq qədər aşiq kişinin hiss və həyəcanının, itirmək qorxusu ilə qovuşmaq kimi əlçatmaz xülyasının ustalıqla verilməsi ədəbi materialı orijinal edən bəlkə də yüz səbəbdən biridir. Yəqin ilk səbəb müəllifin həyat yoldaşının da aktrisa olmasıdır.

Səhnə tərtibatı çox sadədir. Səhnənin ortasında "qurulan" kiçik səhnə, arxa fonda qara pərdə üzərində asılmış ağ-qara qadın şəkilləri, üstünə qrafin və iki qədəhin qoyulduğu jurnal masası və iki stul. Yanda kabinet təəssüratı yaratmaq üçün asılqana keçirilmiş kişi pencəyi və "kəpənək". Yerdə hazırlıq prosesini göstərən yarımçıq çərçivə və yanında usta alətləri.

Həzin musiqi səslənir və bu zaman zərif, səliqəli geyinmiş bir qadın tamaşaçılardan teatrın rəhbəri Toması (Tom – N. Rüstəmov) soruşa-soruşa var-gəl edir. Bu dəm kulisdən ortayaşlı bir kişi sevinc qarışıq həyəcanla ona tərəf gəlir və məşhur aktrisa Yevaya (B. Həmzəyeva) özünü təqdim edir.

Mübahisə, müzakirə, mühakimə, mülahizə və daha bir neçə bu kimi məlum və naməlum münasibətlər burulğanında biz ikinəfərlik oyunu və bu oyun üçün mübarizə aparan kişini görürük. Həyatda və sənətdə məğlub Tom gec də olsa



Yevanı qazanmaq istəyir. Amma çifayda. Yeva xəstədir və məşq yarımçıq qalır. Buna bir səbəb də qadının yubileyi münasibətilə şəhərin əsas (aparıcı) teatrından təklif alması olur və o yenə də – 60 yaşında şöhrətin arxasınca sürünür. Amma bu da çox çəkmir və əsəbləri dözmür, daha doğrusu, ruhu onu bu balaca səhnəyə səsləyir və o, son monoloqunu, yəni "qu quşunun son rəqsi"ni bu səhnədə edir. Özü də yarımçıq. Beləcə, Yeva üçün əsər yazan və bütün həyatı boyu bu arzu ilə yaşayan Tom özünü əbədi tənhalığa qərq edir...

Tamaşa boyu ən xoşuma gələn və ən yerinə düşən keçidlər arasında hər iki qəhrəmanın dilindən səslənən monoloqdur. Özü də bu monoloq yalnız Yevanın deyil, bütün teatr dünyasının, aktyorluğu sənət yolu, alın yazısı seçənlərin taleyi, aqibəti, bir növ həqiqəti kimi üsyan edir: "Aktyor əbədiyyətə qovuşanda yalnız bir insan ömrü deyil, onun ətrafındakı bütün kölgələr yox olur. Heç vaxt oynamadığı, oynaya bilmədiyi qəhrəmanlar da ölür. Hətta onun tamaşaçıları özləri də bilmədən yox olurlar. Aktyor öləndə heç vaxt yanmayan projektorlar da sönür. Heç vaxt qoyulmayan tamaşalar da ölür. Aktyor əbədiyyətə qovuşanda onun oynadığı bütün rollar da ölür...".

Birsaatlıq tamaşa boyu məqam-məqam darıxdırıcı, bir növ boşluq, daha doğrusu, boşluğu doldurmaq üçün düşünülmüş (tapılmamış) keçidlər olsa da, ümumilikdə tamaşaçını həyəcanlandıran dinamik oyun da var idi.

Quruluşçu tamaşanın musiqi tərtibatında da xorvat musiqiçilərinin yaradıcılığına müraciət edib. Pianoçu Maksim Mrvicanın ifasında Tonçi Huljiçin və Klod Debüssinin əsərləri təsirli məqamların, bəraət və etirafların, mühakimələrdən öz həqiqətinə sığınan hər iki qəhrəmanın bir-biri və həyata münasibətlərini anlamağa kömək edir.

Ölüm, bir insanın başqa bir insan həyatına buraxdığı faciəli nəticənin yükü ilə bitən səhnə aktı qəhrəman və onun ideyası uğrunda qurban getməsi haqqında həzin etiraf da sayıla bilər...

**Həmidə Nizamiqızı**



# Peyzajın bənzərsiz vurğunu

## Əsərləri təkcə öz ömrünü yox, incəsənət sevənlərin də ömrünü rəngləndirib

"Rəssamlıq mənə inamımı, ümidimi həyata keçirmək üçün nəfəs aldığım həyatdır" deyirdi Səttar Bəhlulzadə. Ömür yolu da kətan üzərindəki rəsm əsəri kimidir...

Dünyaya qədəm qoyanda biz insanlar üçün cızılmış yol olur. Bu yol rəssamın kətan üzərindəki çəkdiyi cizgilərə bənzəyir. Rəngləri isə biz özümüz vururuq ora. Yaşıl, çəhrayı, mavi, narıncı, bənövşəyi, sarı, ağ, qara... Hərəsinin də özünə görə mənası var. Al-əlvan rənglər yaz sevincini, rəngarəngliyi xatırladırsa, ağ və qara yarı yolda qalmış, cığırını tapa bilməyən insanlardır sanki. Həyatı rəngləndirmək insanın özündən asılıdır. 1909-cu ilin 15 dekabrında dünyaya gələn Xalq rəssamı, ustad sənətkar Səttar Bəhlulzadə də Tanrı tərəfindən cızılmış yolu ömrü boyunca rəngləndirməyi bacarmışdır.

1909-cu ilin 15 dekabrında Əmircanda doğulmuş rəssamın əsərlərində doğma yerin-yurdun, torpağın ab-havası duyulur. Vətənin təbii gözəlliklərindən ilhamlanan rəssam peyzajın bənzərsiz vurğunu idi. Ancaq bununla belə yaradıcılığının ilk illərində tarixi mövzulara da müraciət etmişdi. "Babək üsyanı", "Fətəli xan", "Xəttat Mir Əli" və s. bunu isbat edir. Sonra isə təbiətə vurğunluğu onu başqa mövzulara apardı. "Qudyalçay vadisi", "Xəzər üzərində axşam", "Kəpəzin göz yaşları", "Şahnabat", "Torpağın arzusu", "Qızılbənövşəyə gedən yol", "Vətənimin baharı", "Əmircan", "Şamaxı üzümlükləri" və s. rəssamın yaradıcılıq xəzinəsini təşkil edən sərvətdir.

Bütövlükdə milli təsviri sənətimizdə mənzərənin tamamilə yeni konsepsiyasını irəli sürən Səttar Bəhlulzadə əsərlərində onun emosional-poetik təsdiqini rəng-forma münasibətlərində göstərə bilmişdir. Əsərlərindəki günəşin parlaq işartıları, havanın şəffaflığı, rənglərin təmizliyi, incə, çalar dəyişkənliyi, plenerə verdiyi üstünlük rəssamın yaradıcılıq üslubunda impressionizmə olan meyili aydın ifadə edir.

Formaların dəqiq təsvirindən imtina edən rəssam yalnız rəng plastikası və rəmzi rəng seçimi vasitəsilə güllü-çiçəkli torpaq təəssüratının ümumiləşdirilmiş obrazını yaratmağa nail olmuşdur.

"Kəpəzin göz yaşları" əsərində rəssam reallıqda mövcud olan mənzərəyə "yerdəyişmə" edərək Kəpəzi Göygölün sahilinə gətirmişdir. Kəpəzlə Göygöl bilavasitə təmasda verilmiş, əsərin ideyası məhz bu yerdəyişmə sayəsində reallaşmışdır. Əsərdə günəş çıxmasına baxmayaraq, gecədən qalmış ay da görünməkdədir. Göz yaşları da əsərə xüsusi məna qatan rəmzi amildir. Rəssam təkcə mənzərəni canlandırmamışdır.



Onun 60-cı illərdə dəfələrlə müraciət etdiyi badam ağacı motivi ("Abşeron motivi", "Abşeronun tacı", "Çiçəklənən badam ağacı") də bu qəbildəndir. Belə nümunələr rəssamın təxəyyülünün fəlsəfi məzmunu ilə yanaşı, həm də təbiətin heyranediciliyinə maraq oyadan incilərdir.

"Dədəgünəş" (1964) tablosu da rəng palitra və kompozisiyasının bədii həlli baxımından olduqca maraqlı əsərlərindəndir. Burada rəssamın rəng duyumu yüksək ifadə tərzini tapmışdır. Ön planda iri yaxılarla intensiv vurulan yaşıl, qırmızı, sarı və ağ rənglər torpağın zənginliyinin rəmzi ifadəsidir. Kəpəz burada həm də xalqımızın tarixi yaddaşını əks etdirən şahid kimi qarşımızda durur. Düşündürücülüyü rəng çaları ilə seçilən əsərdə Cavad xanın igidlik və şücaətinə, tarixin çox hadisələrinə şahid olan Kəpəz də, Göygöl də təkcə dağ kimi yox, həm də qürur təcəssümü kimi ifadə olunur.

Rəssamın "Novxanı bağlarında" (1965), "Şamaxı üzümlükləri" (1971), "Girdiman təpələri" (1971) əsərləri də çox maraqlıdır. Hər bir əsərdə kompozisiyanın ümumi və daxili poetik ritmi, rəng qammalarının seçimi və onun icra texnikası ilə bağlı şəkildə meydana çıxır. Rəng yaxılarının qatılığı, dolğunluğu, ölçüləri, forma ilə ahəngdarlığı ilə məxsusi funksiya daşıyıcısına çevrilir.

Səttar Bəhlulzadə daima diqqətəlayiq sənətkarlardandır. Onun haqqında bir çox kitablar nəşr olunmuş, məqalələr yazılmışdır. Professor, sənətşünas Ziyadxan Əliyev tərəfindən yazılmış "Sənətin Məcnunu" kitabı rəssamın yaradıcılığına həsr olunmuş böyük töhfələrdəndir.

Heykəltaraş Ömər Eldarov tərəfindən hazırlanmış Səttar Bəhlulzadənin heykəli xüsusi əhəmiyyətə malikdir. Rəssam uzun və incə barmaqlar vasitəsilə möhtəşəm əsərlər yaradırdı. Böyük sənətkar Ömər Eldarov da bu əllərin sehrini reallıqla, sənətkarlıq qabiliyyətilə canlandırmışdır.

Deyilənə görə, rəssam heç vaxt əsərlərinə imza atmağı, həkk etməyi sevməzmiş. Deyərmiş ki, məni tanıyan onsuz da əsərlərimdən tanıyacaq. Bu sənətkarın, həm özünün, həm də yaradıcılığının nəhəngliyini göstərir.

2023-cü il dekabrın 15-i sənətkarın anadan olmasının 114-cü ildönümüdür. Artıq 49 ildir bu dünyadan köçsə də, sənət xəzinəsi – əsərləri bizimlədir, yaşayır. İllər ötəcək, əsr yenilənəcək, nəsillər dəyişəcək. Rənglərdən, mənzərələrdən duyğulanan, bəhrələnən yeni rəssamlar yetişəcək. Dəyişməz olaraq qalan isə Səttar Bəhlulzadə yaradıcılığının zirvəsi olacaqdır.

Xoşbəxt o kəsdir ki, tək özü üçün deyil, başqaları üçün də nələrsə etsin, iz qoysun. Bu baxımdan Səttar Bəhlulzadə ikiqat xoşbəxt idi. Çünki özünü bütünlüklə yaradıcılığa həsr etmiş sənətkar sənəti ilə tək öz ömrünü yox, incəsənət sevənlərin də ömrünü rəngləndirmişdir. Onun sağ ikən həyata keçirdiyi bu missiyanı hazırda əsərləri yerinə yetirir və hələ gələcəkdə də bu əsərlər rənglərin işığında parlamağa davam edəcək.

**Aynurə Muradzadə**

## Xatirə təqvimi — 16–18 dekabr

### Azərbaycan

**16 dekabr 1898** – Xalq rəssamı Qəzənfər Ələkbər oğlu Xalıqov (1898 – 1.3.1981) Bakıda anadan olub. "Molla Nəsrəddin" jurnalında karikaturaçı kimi çalışıb, "Sehrli xalat", "İstintaq davam edir" filmlərində geyim rəssamı olub. "Nizaminin portreti", "Firdovsinin dəfni" və s. əsərlərin müəllifidir.

**16 dekabr 1909** – Yazıçı-publisist, Əməkdar mədəniyyət işçisi Cahangir Rəcəb oğlu Gözəlov (1909 – 7.9.1999) Ağdam rayonunun Şıxbabalı kəndində anadan olub.

**16 dekabr 1922** – Ədəbiyyatşünas, Əməkdar mədəniyyət işçisi İmran Sultan oğlu Seyidov (1922 – 10.5.2001) Qubada doğulub. "Koroğlu" dastanını rus dilinə tərcümə edib. Azərbaycan EA-nın İctimai elmlər bölməsinin elmi katibi olub.

**16 dekabr 1927** – Tarixçi alim, akademik Cəmil Bahadur oğlu Quliyev (1927 – 27.12.2010) Ağdamda doğulub. Azərbaycan Sovet Ensiklopediyasının baş redaktoru, Elmlər Akademiyasının vitse-prezidenti olub.

**16 dekabr 1932** – Ədəbiyyatşünas, professor Xalid Əlimirzə oğlu Əlimirzəyev (1932 – 30.1.2016) Qəbələ rayonunun Qəmərvan kəndində anadan olub.

**16 dekabr 1934** – Şair, tərcüməçi, Əməkdar incəsənət xadimi Tofiq Qulam oğlu Bayram (1934 – 18.4.1991) Bakının Əmircan kəndində anadan olub. Kitabları: "Səninlə görüşəndə", "Əsrin oyunu", "Könlümdə yaşayanlar", "Ay gecikən məhəbbətim" və s. Rus dilindən bədii tərcümələrin müəllifidir.

**16 dekabr 1952** – Əməkdar artist, müğənni Zöhrə Abdulla qızı Abdullayeva (1952 – 28.5.2021) Şuşa şəhərində anadan olub.

**16 dekabr 1959** – Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə Azərbaycan Dövlət Dram Teatrına "Akademik Teatr" statusu verilib.

**16 dekabr 1961** – Jurnalist, Azərbaycanın Milli Qəhrəmanı Salatın Əziz qızı Əsgərova (1961 – 9.1.1991) anadan olub.

**16 dekabr 1979** – Məşhur cazmen, bəstəkar, Əməkdar artist Vaqif Əziz oğlu Mustafazadə (16.3.1940 – 1979) vəfat edib. Caz-muğamın yaradıcısıdır. Beynəlxalq müsabiqə və festivalların qalibi və laureatı olub.

**16 dekabr 2011** – Opera müğənnisi, SSRİ Xalq artisti Firəngiz Yusif qızı Əhmədova (23.9.1928 – 2011) vəfat edib. 1951-1988-ci illərdə Akademik Opera və Balet Teatrının solisti olub.

**17 dekabr 1905** – "İrşad" qəzeti nəşrə başlayıb. Nəşrin imtiyaz sahibi Əhməd bəy Ağaoğlu idi. M.Ə.Rəsulzadə bir müddət qəzetin redaktoru olub. Üzeyir Hacıbəyli bir çox publisistik məqalələrini, "Ordan-burdan" silsiləsindən felyetonlarını bu qəzetdə dərc etdirib. Nəşr 1908-ci ildə fəaliyyətini dayandırıb.

**17 dekabr 1905** – Xalq şairi Osman Sarıvəlli (Osman Abdulla oğlu Qurbanov; 1905 – 3.7.1990) Qazax rayonunun Sarıvəlli (İkinci Şıxlı) kəndində anadan olub. Şairin "Gətir oğlum, gətir!" poeması XX əsr Azərbaycan poeziyasının ən gözəl nümunələrindəndir. Sözlərinə mahnılar yazılıb.

**17 dekabr 1924** – Filologiya elmləri doktoru, mətbuat xadimi, Əməkdar jurnalist, professor Şirməmməd Ağaməmməd oğlu Hüseynov (1924 – 24.6.2019) Şəkidə doğulub. Mətbuat tariximizin, Azərbaycan Xalq Cümhuriyyətinin, M.Ə.Rəsulzadə, Ü.Hacıbəyli irsinin öyrənilməsi və təbliğində böyük xidmətləri var.

**17 dekabr 1987** – Tanınmış rəngkar Fərhad İbrahim oğlu Hacıyev (29.8.1929 – 1987) vəfat edib. Azərbaycanda bərpa rəssamlığının əsasını qoyub.

**17 dekabr 1993** – Xalq yazıçısı, dramaturq, ictimai xadim, Sosialist Əməyi Qəhrəmanı Mirzə Əjdər oğlu İbrahimov (28.10.1911 – 1993) vəfat edib. "Gələcək gün", "Böyük dayaq" romanları, "Həyat", "Kəndçi qızı" pyesləri və s. əsərlərin müəllifidir.

**17 dekabr 1994** – Respublika Sarayında (indiki Heydər Əliyev Sarayı) Xalq rəssamı Səttar Bəhlulzadənin anadan olmasının 85-ci ildönümünə həsr olunmuş təntənəli gecə keçirilib. Azərbaycan Dövlət İncəsənət Muzeyində rəssamın sərgisi açılıb. Prezident Heydər Əliyev yubiley tədbirlərində iştirak edib.

**17 dekabr 2018** – Prezident İlham Əliyev Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük dramaturq, şair, yazıçı Cəfər Cabbarlının 120 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.

**18 dekabr 1928** – Tanınmış xanəndə Qulu Rüstəm oğlu Əsgərov (1928 – 11.6.1987) Salyan rayonunda doğulub. Muğam və xalq mahnılarının bənzərsiz ifaçısı olub, opera tamaşalarında Məcnun (Ü.Hacıbəyli – "Leyli və Məcnun"), Şah İsmayıl (M.Maqomayev – "Şah İsmayıl") və s. rollarda çıxış edib.

**18 dekabr 1930** – Tarix elmləri doktoru, professor Süleyman Sərdar oğlu Əliyarlı (1930 – 16.1.2014) Beyləqan rayonunun Şahsevən kəndində anadan olub. "Azərbaycan tarixi üzrə qaynaqlar", "Azərbaycan türklərinin etnogenezi" və s. əsərlərin müəllifidir.

**18 dekabr 1934** – Şair, dramaturq, publisist Teyyub Qurban (Teyyub Yarməmməd oğlu Qurbanov; 1934–2018) anadan olub.

**18 dekabr 1954** – Tanınmış teatrşünas, rejissor Şaiq Cabir oğlu Səfərov (1954 – 27.1.2022) Bakıda anadan olub. Müxtəlif teatrlarda çalışıb, Azərbaycanda beynəlxalq teatr tədbirlərinin təşkilində yaxından iştirak edib, xaricdə teatr forumlarında ölkəmizi təmsil edib.

**18 dekabr 1957** – Yazıçı, dramaturq, şair, Əməkdar incəsənət xadimi Əyyub Cəbrayıl oğlu Abbasov (1905–1957) vəfat edib. Zəngəzur qəzasının Şəki kəndində doğulub. "Zəngəzur" romanı, "Şəfəq", "Bahar nəğməsi" və s. pyeslərin müəllifidir. Bakı Teatr Məktəbinin direktoru olub.

**18 dekabr 1980** – Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbi yaradılmasının 60 illiyi ilə əlaqədar Azərbaycan SSR Ali Sovet Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilib.

**18 dekabr 2000** – Prezident Heydər Əliyev 1898-ci ildə Bakıda çəkilmiş kinosüjetlərin ilk kütləvi nümayişinin keçirildiyi tarixin – 2 avqustun kino işçilərinin peşə bayramı – Azərbaycan Kinosu Günü elan edilməsi barədə sərəncam imzalayıb.

**18 dekabr 2006** – Prezident İlham Əliyev Bakı şəhərində İstiqlal muzeyinin yaradılması və İstiqlal abidəsinin ucaldılması haqqında sərəncam imzalayıb.

### Dünya

**16 dekabr 1770** – Alman bəstəkarı, dirijor və pianoçu Lüdviq van Bethoven (Ludwig van Beethoven; 1770 – 26.3.1827) anadan olub.

**16 dekabr 1775** – İngilis realist ədəbiyyatında "qadın romanları"nın banisi Ceyn Ostin (Jane Austen; 1775–1817) anadan olub.

**16 dekabr 1866** – Rus rəssamı, təsviri sənətdə abstraksionizmin banilərindən Vasili Kandinski (1866–1944) anadan olub.

**17 dekabr 1830** – Fransız yazıçısı Jül de Qonkur (Jules de Goncourt; 1830 – 20.6.1870) anadan olub. Yazıçı Edmon de Qonkurun (1822-1896) kiçik qardaşıdır. Fransanın ən nüfuzlu ədəbi təltifi olan Oonkur mükafatı onların şərəfinə təsis edilib.

**17 dekabr 1893** – Alman teatr rejissoru və nəzəriyyəçisi Ervin Piksator (Erwin Piscator; 1893-1966) anadan olub.

**18 dekabr 1921** – SSRİ Xalq artisti, aktyor, sirk ustası Yuri Vladimiroviç Nikulin (1921 – 21.8.1997) anadan olub. Çəkildiyi filmlər: "Qafqaz əsiri", "Brilyant əl", "Qoca quldurlar", "Müqəvva" və s. Moskva Sirkinə rəhbərlik edib.

**Hazırladı: V.Orxan**

# Moskvada Heydər Əliyevin 100 illiyinə həsr olunmuş anım gecəsi

Moskvada Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illiyinə həsr olunmuş xatirə gecəsi keçirilib. Dekabrın 12-də Azərbaycanın Rusiyadakı Səfirliyinin Heydər Əliyev Fondunun Moskvadakı nümayəndəliyi ilə birlikdə təşkil etdiyi tədbirə iki ölkənin parlament üzvləri, Rusiya paytaxtındakı diplomatik korpusun nümayəndələri, ictimai xadimlər, Azərbaycan diasporunun təmsilçiləri qatılıblar.

Tədbirin qonaqları Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyi tərəfindən təşkil edilmiş fotosərgi ilə tanış olublar.

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu çıxış edərək Heydər Əliyev şəxsiyyətinin ölkəmizin tarixində yerindən, o cümlədən milli mədəniyyətin inkişafında rolundan söz açıb: “Bir mədəniyyət xadimi və uzun müddət Heydər Əliyevin rəhbərliyi altında çalışmış insan kimi deyə bilərəm ki, o, milli mədəniyyəti Azərbaycan xalqının sərvəti kimi qiymətləndirirdi”.



Azərbaycan-Rusiya əməkdaşlığının Heydər Əliyevin xarici siyasət strategiyasında xüsusi yer tutduğunu deyən diplomat vurğulayıb ki, bu il Rusiyada Ulu öndərin 100 illiyi geniş şəkildə qeyd olunub, ölkənin bir sıra şəhərlərində tədbirlər keçirilib.

Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin qeyd edib ki, Rusiyada Heydər Əliyevin xatirəsini böyük səmimiyyət və ehtiramla yad edirlər. Heydər Əliyev Rusiyanın böyük və səmimi dostu, Rusiya-Azərbaycan münasibətlərinin ardıcıl inkişafının tərəfdarı olub.

Tədbirdə TASS İnformasiya Agentliyi baş direktorunun birinci müavini Mixail Qusmanın müəllifi olduğu “Liderin ürəyi” sənədli filmi nümayiş etdirilib. O deyib: “Biz dahi insan haqqında olan bu filmi böyük sevgi ilə yaratdıq. Həmin vaxtlar Azərbaycanda yaşamış və mənim yaşıdlarım olan insanlar üçün bizim nəslin formalaşmasında Heydər Əlirza oğlunun obrazı, onun liderliyi çox mühüm idi, çünki bizim sosial cəhətdən təşəkkül tapmağımız onun vaxtında baş verib”.

M.Qusman tədbirdə iştirak edən Azərbaycanın Xalq artisti, Rusiyanın Böyük Teatrının solisti Elçin Əzizovdan filmdə səslənən mahnını ifa etməsini xahiş edib. Polad Bülbüloğlu royalın arxasına keçib, iştirakçıların alqışları altında “Liderin ürəyi” mahnısı səsləndirilib.

# Ukrayna Milli Filarmoniyasında xatirə konserti

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı Ukrayna Milli Filarmoniyasında klassik musiqi konserti keçirilib.



Bu ölkədəki səfirliyimizin təşəbbüsü və təşkilatçılığı ilə musiqi axşamında Ukrayna Milli Simfonik Orkestrinə Azərbaycanın Xalq artisti Yalçın Adıgözəlov dirijorluq edib.

Konsertdə Ukrayna mədəniyyət və informasiya siyasəti naziri vəzifəsini icra edən Rostislav Karandeyev, digər rəsmilər, diplomatik korpusun nümayəndələri, diaspor təşkilatlarının rəhbər və fəalları, elm, mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Konsertdən əvvəl çıxış edən səfir Seymur Mərdəliyev bildirib ki, Heydər Əliyev Ukraynanın dostu, Azərbaycan ilə Ukrayna arasında dostluğun və strateji tərəfdaşlığın banisi olub. Heydər Əliyev irsinə əsaslanan iki ölkə arasında tərəfdaşlıq münasibətləri bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən davam etdirilir.

Konsertdə Azərbaycan və Ukrayna bəstəkarlarının əsərləri səslənib.

# 1500 il əvvələ aid qəsəbənin xarabalıqları aşkarlanıb

İtaliyada arxeoloqlar bir vaxtlar 2 minə yaxın sakinin yaşadığı qədim Roma dövrünə aid qəsəbənin xarabalıqlarını aşkar ediblər.



Paytaxt Roma ilə Neapol şəhərləri arasında yerləşən İnteramna Lirenas adlı qəsəbənin imperator Qay Yuli Sezarın dövrünə aid olduğu bildirilir.

Arxeoloqlar əvvəlcə buranı kiçik bir yaşayış məntəqəsi hesab ediblər. Qazıntılardan sonra evlər, məbəd, üç hamam kompleksi və teatrdan ibarət bu qəsəbənin böyük ərazini əhatə etdiyi məlum olub. Buradakı teatr Aralıq dənizinin hər yerindən gətirilən mərmərlə tikilib və təxminən 1500 nəfərlik olub.

Pompey şəhərindən fərqli olaraq, bu yaşayış məntəqəsinin təbii fəlakətlər nəticəsində dağılmadığı, Roma İmperiyasının süqutundan təxminən yüz il sonra, VI əsrdə işğal təhlükəsi səbəbindən tərk edildiyi bildirilib.

Arxeoloqlar ərazidə qazıntılara ilk dəfə 2010-cu ildə başlayıblar.

# “Mediada süni intellektin idarə edilməsi”

Anadolu Agentliyinin təşkilatçılığı ilə Ankarada “Mediada süni intellektin idarə edilməsi” mövzusunda forum keçirilib.



Forumda çıxış edən Türkiyənin sənaye və texnologiya naziri Mehmet Fatih Kacır bildirib ki, son 21 il ərzində ölkədə süni intellekt sahəsinə 6,7 milyard türk lirəsi məbləğində dəstək göstərilib. Nazirin sözlərinə görə, Türkiyə Elmi və Texnoloji Araşdırmalar Şurasının (TÜBİTAK) təqaüd və dəstək proqramları çərçivəsində ayrılan paket 3700-dən çox layihəni və 1300-dən çox mütəxəssisi əhatə edib.

Forumda süni intellektin gündəlik həyatı necə dəyişdirdiyi, mediaya təsirləri, süni intellekt tətbiqləri, onun hüquqi və etik ölçüləri müzakirə olunub. Tədbirdə “Utopiya və ya distopiya: 2040-cı ildə medianı nə cür təsəvvür edirik?” və “Mediada süni intellektin etik istifadəsi üzrə bələdçisi” mövzularında panellər də keçirilib.

# “Qızıl qlobus”a iddiaçılar

Hollivud Xarici Jurnalistlər Birliyinin təsis etdiyi “Qızıl qlobus” mükafatına növbəti nominantlar məlum olub.

Siyahıya “Barbi” filmi (rejissor Qreta Qerviq) başçılıq edir. Ekran əsəri 9 nominasiyada mükafata namizəddir.

Rejissor Kristofer Holanın baş qəhrəmanı atom bombasının yaradıcısı olan “Oppenheymer” filmi (Julius Robert Oppenheimer, amerikalı fizik) 8 nominasiyada “Qızıl qlobus”a iddiaçıdır.

Bu filmlərə digər rəqib Martin Skorsezenin “Ay çiçəyi qatilləri”dir. 1920-ci illərdə Oklahomada yerli amerikalıların qətllərindən bəhs edən filmdə Robert de Niro və Leonardo di Kaprio kimi ulduzlar çəkilib.

Leonardo di Kaprio, eləcə də Bredli Kuper (“Maestro”), Kilian Mörfi (“Oppenheymer”), Marqo Robbi (“Barbi”) aktyor roluna görə nominantlar arasındadır.

Ən yaxşı qadın rolu nominantları arasında isə “Ay çiçəyi qatilləri” filmindən Lili Qladstoun, “Eyni binada qətllər”dən Selena Qomes və başqaları var.

“Qızıl qlobus”un nominasiyaları sırasına ilk dəfə “Ən yaxşı kinematoqrafiya nailiyyəti və kassa yığımları” adı altında blokbaster filmləri üçün kateqoriya da əlavə edilib. Bu, “Teylor Svift: zamanın turnesi” film-konsertinə nominasiya üçün yol açıb. Kinoprokatçıların siyahısında isə “Netflix” (NFLX.O) 13 nominasiya ilə liderlik edir.

“Qızıl qlobus” mükafatlarının təqdimatı yanvarın 7-də “CBS” və “Paramount+”un efirində birbaşa yayımlanacaq.

# “Bastau” yeni nəslin kinosunu tanıdır

12–16 dekabr tarixlərində Qazaxıstanın Almatı şəhərində “Bastau” XI Beynəlxalq Tələbə və Debüt Filmləri Festivalı keçirilir.

Festivalın prezidenti Sergey Azimov bu kino bayramını belə səciyyələndirib: “Bastau” yeni nəslin kinosunu tanıdır. Yeni bir festival yaratmaq nə qədər çətin olsa da, onu ikinci, üçüncü, onuncu dəfə keçirmək daha çətindir. Artıq on birinci dəfədir bu “Bastau” Almatıda baş tutur”.

Festivalın açılışında II Dünya müharibəsindən sonra sovet tərəfinə əsir düşən yapon kursant Axiko Tesuronun gerçək əhvalatından bəhs edən “Savaş girovları” filmi nümayiş olunub.

Ümumilikdə beş gün ərzində 70-dən çox bədii filmin nümayişi nəzərdə tutulub. T.Jurqenov adına Qazaxıstan Milli İncəsənət Akademiyasında tanınmış kino mütəxəssislərinin ustad dərsləri və Fransa kino məktəbinin təqdimatı da planlaşdırılıb. Festival çərçivəsində qısametrajlı oyun və sənədli film layihəsi olan rejissorlar üçün “Almaty Film Lab” emalatxanası da fəaliyyət göstərir. Festival proqramının bir hissəsi kimi emalatxana qaliblərinə də pul mükafatları veriləcək.

**Gülcahan**

# Avropada kim xoşbəxtdir?

## Və ya pul həmişə xoşbəxtlik gətirmir...

Avropa İttifaqının (Aİ) statistika agentliyi Eurostat qitə ölkələrinin vətəndaşları arasında xoşbəxtlik mövzusunda növbəti araşdırmanın nəticələrini açıqlayıb. Tədqiqatdan belə məlum olur ki, Aİ ölkələrində xoşbəxtlik heç də o ölkənin iqtisadi qüdrəti ilə şərtlənmir. Ən xoşbəxt ölkələrinin ilk üçlüyünə yüksək rifahlı Avstriya ilə yanaşı, nisbətən kasıb Polşa və ən zəif iqtisadi imkanlılar sırasında olan Rumıniyanın yer alması bunu göstərir. Aİ-nin ən zəngin ölkələrindən sayılan Almaniya isə axırdan ikinci yerdədir. Sonuncu ölkə Bolqarıstan olub.

Qeyd edək ki, Eurostat hər il üzv ölkələrin əhalisinin həyatlarında nə qədər xoşbəxt olduğunu müəyyən parametrlərlə ölçür.

Bir ölkə nə qədər zəngindirsə, xalqı da bir o qədər xoşbəxtdir deyə fərz edilsə də, nəticələr bunu sübut etmir. Almaniya 27 ölkə arasında ən güclü iqtisadiyyata sahibdir, amma...

2021-ci ildə 7,1 balla (10 ballıq şkala üzrə) xoşbəxtlik reytinqində orta sıralarda olan Almaniyada bu göstərici 6,5-ə düşüb. Kölndə yerləşən Rheingold İnstitutu da bu günlərdə nəticələri açıqlanan sorğusunda almanların əksəriyyətinin “narahat, laqeyd və içinə qapalı” olduğunu bildirmişdi.

Hazırda yaşanan iqtisadi durğunluqla bərabər, Almaniya Ukraynadakı müharibə üzündən immiqrasiya (ölkəyə mühacir axını) artımı və qeyri-populyar hökumət kimi problemlərlə də mübarizə aparır. Araşdırmaya görə, almanların narahatlığına səbəb əhalinin təxminən beşdə birinin yaşadığı depressiyadır.

Araşdırmada Aİ ölkələrində 16-29 yaş arası insanlar 65 yaşdan yuxarı olanlara nisbətən daha yüksək həyat məmnuniyyəti nümayiş etdiriblər. O da diqqəti cəlb edir ki, uşaqlı ailələr özlərini daha xoşbəxt sayırlar.




Olaylar, faktlar (15–19 dekabr)

### 130 il əvvəl...



**15 dekabr 1893-cü ildə** danimarkalı alim Vilhelm Tomsen Orxon-Yenisey daş kitabələrindəki şifrləri açması və oradakı yazıları oxuması ilə bağlı Danimarka Kral Akademiyasında məruzə edib. Alimin qədim türk yazı mədəniyyəti və əlifbası barədə kəşfi dünya elminə dəyərli töhfə idi. Bu əlamətdar tarixin yaşadılması üçün türkdilli ölkələr tərəfindən UNESCO-ya 15 dekabrın Beynəlxalq Türk Dili Günü elan olunması barədə müraciət edilib.

### 77 il əvvəl...

**17 dekabr 1946-cı ildə** Cənubi Azərbaycanda Seyid Cəfər Pişəvərinin rəhbərliyi ilə qurulmuş Milli Hökuməti devirən İran silahlı qüvvələri Təbriz, Ərdəbil, Urmiya, Mərənd və digər şəhərlərdə kütləvi həbs və qırğınlar həyata keçiriblər. Cənubi Azərbaycan türklərinin mühacir təşkilatları 17 dekabrı “Güney Azərbaycanda milli soyqırımı günü” kimi qeyd edirlər.

### 69 il əvvəl...

**19 dekabr 1954-cü ildə** Parisdə Avropa Şurası ölkələrinin hökumət başçıları tərəfindən “Avropa mədəniyyət Konvensiyası” imzalanıb. Bu, Avropada inteqrasiya proseslərinə təkan verən ilk sənədlərdən biridir. Konvensiya üzv ölkələrin parlamentlərində ratifikasiyadan sonra 5 may 1955-ci ildə qüvvəyə minib.

### 37 il əvvəl...




**16 dekabr 1986-cı ildə** Qazaxıstanda siyasi səciyyəli ilk kütləvi antisovet çıxışı olub. Moskva tərəfindən Qazaxıstan KP MK-nın birinci katibi vəzifəsinə rus Q.Kolbinin təyin edilməsi Almatıda tələbələrin kütləvi aksiyasını doğurub. Aksiyalar üç gün sürüb və hərbi qüvvə tətbiqi ilə yatırılıb. Qazaxıstan müstəqilliyini elan edəndən sonra 16 dekabr Milli Dirçəliş Günü kimi qeyd edilir.

### 34 il əvvəl...

**16 dekabr 1989-cu ildə** Rumıniyanın macarlar yaşayan Timişoare şəhərində Nikolae Çauşeskunun kommunist diktaturasına üsyan başlayıb. Çauşesku etirazları yatırmaq üçün qoşun hissələri göndərdi, yüzlərlə insan həlak oldu. Lakin inqilabı yatırmaq mümkün olmadı və bir həftə içində Çauşesku rejimi süqut etdi. 25 dekabrda o, həyat yoldaşı Yelene Çauşesku ilə birlikdə edam edildi.

### 32 il əvvəl...

**16 dekabr 1991-ci ildə** Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 dekabrın dünya azərbaycanlılarının həmrəylik bayramı kimi qeyd olunması barədə qərar qəbul edilib. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün Azərbaycan Ali Sovetinə müraciət edib. Dekabrın 25-də parlament 31 dekabrın “Dünya azərbaycanlılarının həmrəyliyi günü” elan olunması barədə qanun qəbul etdi.

### 26 il əvvəl...

**18 dekabr 1997-ci ildə** Prezident Heydər Əliyev “1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi sürətdə deportasiyası haqqında” fərman imzalayıb. Fərmanda 100 minə yaxın azərbaycanlının ata-baba yurdlarından deportasiyasına dair SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr və 1948-ci il 10 mart tarixli qərarlarına siyasi qiymət verilir, bu deportasiya aktlarının XIX əsrin əvvəlindən başlayaraq azərbaycanlılara qarşı həyata keçirilmiş təqib və soyqırımı siyasətinin tərkib hissəsi olduğu vurğulanırdı.

### 20 il əvvəl...

**15 dekabr 2003-cü ildə** Azərbaycan xalqı Heydər Əliyevlə vidalaşıb. Dəfn mərasimində Türkiyə, Rusiya, Qazaxıstan və Ukrayna prezidentləri, Gürcüstanın dövlət rəhbərliyi, digər ölkələrdən nümayəndə heyətləri iştirak edib. Heydər Əliyev Fəxri xiyabanda dəfn olunub.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib,
“Azərbaycan” nəşriyyatında çap olunub.
**Tiraj:** 5053. **Sifariş:** 3424
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641